Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!

*(Qurani-Kərim, Hucurat, 10)*

## "ASAN xidmət"in bəyənilmə əmsalı 100 faizə yaxındır

"ASAN xidmət"in bəyənilmə əmsalı təxminən 100 faizə yaxındır. Yəni, bu, insanların bu xidmətə verdikləri qiymətdir. Bu fikirləri Prezident İlham Əliyev Bakıda 1 saylı "ASAN kommunal" Mərkəzinin açılışı zamanı deyib. Son bir neçə il ərzində "ASAN xidmət"ə 13 milyon müraciət olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, bu xidmətin həm coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır: "Artıq bizim 11 mərkəzimiz var.

səh. 9

www.scwra.gov.az

*Dinimiz milli-mənəvi sərvətimizdir.*

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (305) / DEKABR 2016-cı il

# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2016-cı il.*

## Komitə sədri: "Məzarlıqlarda əlavə yer götürülməsinə icazə verilməyəcək"

*Milli Məclis gələn il "Məzarlıqlar haqqında" qanun layihəsinə baxacaq".*

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. Komitə sədri bildirib ki, qanun layihəsində yeni salınacaq məzarlıqlarda məzar və sinə daşlarının ölçüləri, məzarlar arasındakı məsafə, məzarlıqlarla yaşayış məntəqələri arasındakı məsafə, kimsəsiz insanların dəfn məsələsi yer alıb: "Bəzən kimlərsə qəbiristanlıqda əlavə yer götürür. İnsan vəfat etmədən məzarlıq yaradırlar. Gələcəkdə buna yol verilməyəcək. Məzarlıqlar haqqında yeni qaydalara uyğun olaraq, şəxs vəfat etdikdə yalnız onun özünün vəsiyyətinə uyğun olaraq, yanında kişidirsə, yanında xanımı,



xanımdırsa, həyat yoldaşı dəfn oluna bilər. Başqa heç bir halda əlavə yer götürülməsinə icazə verilməyəcək". O qeyd edib ki, yeni qaydalara əsasən, məzarlıqlar yenə bələdiyyələrin sərəncamında olacaq.



## Prezident İlham Əliyev İçərişəhərdəki "Bəylər" məscidində bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olub

səh. 3

## Kamal Abdullayev: Azərbaycandakı "Multikulturalizm ili" bir sıra ölkələrdə multikultural əhval-ruhiyyənin möhkəmlənməsinə səbəb oldu



səh. 4-5



## "Tolerantlıq xalqımızın gen yaddaşından gəlir və bu ənənə günümüzdə yüksək səviyyədə davam edir"

səh. 8-9

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 367-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 367-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2016-cı il.*

# "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının QANUNU

**Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443) 12-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci hissəyə aşağıdakı məzmunda 3-1-ci bənd əlavə edilsin:

"3-1) dini ekstremist fəaliyyətlə məşğul olma;".

2. Aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Dini ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 oktyabr 2016-cı il.*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

**Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429; № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846; № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) aşağıdakı dəyişikliklər edilsin:**

1. 43.1-ci maddədə "517," rəqəmlərindən sonra "517-1," rəqəmləri, "592," rəqəmlərindən sonra "592-1," rəqəmləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 88.1.5-1-ci və 89.3-1-ci maddələr əlavə edilsin:

"88.1.5-1. müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri - dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələbləri pozulduqda, o cümlədən dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda, onların şəxsiyyətinin müəyyən edilməsi məqsədilə və ya dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədildikdə;

89.3-1. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda - tutulanın şəxsiyyəti müəyyən edilənədək, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədən şəxslər isə 48 saatadək inzibati qaydada tutula bilər.".

3. 89.4-cü maddədə "513" rəqəmlərindən sonra ", 517-1" rəqəmləri, "çətinlik yaratdığı hallarda" sözlərindən sonra isə ", habelə şəxsin narkomaniyadan məcburi müalicəyə ehtiyacının olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə tibbi yoxlamaya göndərildiyi hallarda" sözləri əlavə edilsin.

4. Aşağıdakı məzmunda 517-1-ci və 592-1-ci maddələr əlavə edilsin:

"Maddə 517-1. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulması

517-1.1. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulması, yəni:

517-1.1.1. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında nəqliyyat vasitələrinin və piyadaların hərəkətini müvəqqəti məhdudlaşdıran və ya qadağan edən tədbirlərin tətbiqinə, ərazinin müəyyən sahələrinə və obyektlərə nəqliyyat vasitələrini və piyadaları buraxmamağa maneçilik törətməyə;

517-1.1.2. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadan, onların günün müəyyən edilmiş vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmasına;

517-1.1.3. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasına giriş və ya bu zonadan çıxış zamanı fiziki şəxslərə, onların əşyalarına, nəqliyyat vasitələrinə və nəqliyyat vasitələrində olan əşyalara texniki vasitələr tətbiq etməklə baxış keçirməyə maneçilik törədilməsinə;

517-1.1.4. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması məqsədi ilə fiziki şəxslərin mənzilinə və digər yaşayış yerlərinə, onların torpaq sahələrinə, nəqliyyat vasitələrinə, habelə mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin ərazilərinə, binalarına, nəqliyyat vasitələrinə daxil olmağa maneçilik törədilməsinə;

517-1.1.5. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar zərurət yarandıqda fiziki şəxslərin əməliyyatın aparılma zonasından köçürülməsinə, binaların, qurğuların və digər tikililərin sökülməsinə maneçilik törədilməsinə;

517-1.1.6. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında sanitar-epidemioloji, baytarlıq və digər karantin tədbirlərinin pozulmasına;

517-1.1.7. dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında tərkibində narkotik və ya psixotrop maddələr olan dərman vasitələrinin dövriyyəsinin məhdudlaşdırılmasının pozulmasına görə -

fiziki şəxslər əlli manatdan səksən manatadək miqdarda cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə, on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər dörd yüz əlli manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər iki min manatdan üç min manatadək miqdarda cərimə edilir.

Maddə 592-1. Məsafədən idarə edilən pilotsuz uçan aparatların əldə edilməsi və satılması qaydalarının pozulması

Müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi olmadan məsafədən idarə edilən pilotsuz uçan aparatların əldə edilməsi və ya satılmasına görə -

məsafədən idarə edilən pilotsuz uçan aparatlar müsadirə edilməklə yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 oktyabr 2016-cı il.*

# Prezident İlham Əliyev İçərişəhərdəki "Bəylər" məscidində bərpa işlərindən sonra yaradılan şəraitlə tanış olub

Dekabrın 24-də İçərişəhərdəki "Bəylər" məscidinin bərpa və konservasiya işlərindən sonra təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə məsciddə yaradılan "Müqəddəs əmanətlər" ekspozisiyası ilə tanış olublar.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verib. Bildirilib ki, qədim Bakının inkişaf mərhələlərinə nəzər salanda bu şəhərdə qədim dövrlərdən başlayaraq müxtəlif din və həyat tərzlərinin bir-birini əvəz etdiyini və nəticə etibarilə mənəvi mədəniyyətin mənbəyinə çevrildiyini görürük. VII əsrin birinci yarısından Azərbaycanda, o cümlədən Bakıda İslam dininin yayılmasının geniş vüsət alması bu şəhərdə çoxsaylı dini memarlıq abidələrinin - məscid, təkyə, məktəb-məscid və türbələrin tikilməsinə səbəb olub və bu proses yüzilliklər boyu davam edib, nəticədə günümüzə onlarla qədim mədəniyyət abidələrini gətirib çıxarıb. 1895-ci ildə inşa olunan "Bəylər" məscidi də yerli əhəmiyyətli tarix-memarlıq abidəsidir.

Qeyd olunub ki, İçərişəhər ərazisində inşa olunan bu sonuncu məscid zalın böyüklüyünə və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsiplərindən istifadə olunub. Mükəmməl görünüşlü minarənin yuxarı hissəsi Qərbi Avropaya xas olan dekorativ elementlərlə bəzədilib. Məscidin zalında və mehrabında mükəmməl bədii daşyonma sənəti nümunələrindən məharətlə istifadə edilib. Memarlıq abidəsi qədim məscidin yerində tikilib.





"Bəylər" məscidində bərpa və konservasiya işləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəvət etdiyi avstriyalı məşhur bərpaçı ekspert Erix Pummer tərəfindən aparılıb. 2014-2015-ci illərdə görülən işlər zamanı məscidin bərpasında "İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi" də iştirak edib, qapı və pəncərələri memarlıq elementləri ilə bəzəyib. Nəticədə təyinatına uyğun muzeyləşdirilən məsciddə "Müqəddəs əmanətlər" ekspozisiyası yaradılıb.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırılıb ki, ekspozisiyada İslam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim "Qurani-Kərim" kitabları nümayiş etdirilir. Burada 73 Quran, 7 dini kitab, 19 dini atribut - ümumilikdə, 99 eksponat nümayiş olunur. Yanğından hifz olunan kitabların vərəqləri, Dərbənd məscidinə aid və axund tərəfindən divara hörülərək qorunan Quran, eləcə də burada nümayiş etdirilən Quranın cüzləri ekspozisiyada diqqəti cəlb edən eksponatlardır. Azərbaycanın müxtəlif regionlarından toplanılan müqəddəs əmanətlər yanğına məruz qalan kitabxanalar və şəxsi mülklərdən aşkar edilib.

Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Heydər Əliyev Fondu da bu prosesə böyük töhfələr verib, mədəni və mənəvi mühitin qorunmasında mühüm xidmətlər göstərib. İçərişəhərdəki "Bəylər" məscidinin bərpa və konservasiyası da ölkəmizdə milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı görülən işlərə önəmli bir töhfədir.

# "Gənclərin din pərdəsi altında aparılan çirkin siyasətə qarşı maarifləndirilməsində "Fitnə" filmi xüsusi rol oynayır"

**Dekabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Səbail Rayon İcra Hakimiyyətinin (RİH) və Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə "Fitnə" filminin nümayişi olub.**

Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, Səbail RİH-in başçısı Eldar Əzizov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Ekologiya və təbii sərvətlər nazirinin müavini Novruz Quliyev, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, deputat Cavanşir Paşazadə, din xadimləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılar "Fitnə" filmini izləyiblər. Çıxış edən Şəmsəddin Hacıyev "Fitnə" filminin gənclərin din pərdəsi altında aparılan çirkin siyasətə qarşı maarifləndirilməsində xüsusi rol oynadığını bildirib. Qeyd edib ki, tarixən din amilindən siyasi məqsədlər üçün istifadə olunub. Bu gün də İslamın mahiyyətinin təhrif edilməsi və müsəlman ölkələrinin inkişafının qarşısının alınması üçün dini radikalizmdən istifadə edilir. İslam dini, əslində, günahsız insanların öldürülməsinə, savadsızlığa qarşıdır. Dini radikalizmlə və xurafatla mübarizə aparmaq üçün gənclərimizin elmli olmaları vacib şərtlərdəndir.




Eldar Əzizov çıxışında dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə" filminin gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Mübariz Qurbanlı bildirib ki, bu gün dünyada İslam və digər dinlərdən başqa məqsədlər üçün istifadə edən radikal qüvvələr var. Bu radikal qüvvələr xüsusilə gəncləri öz sıralarına cəlb etməyə çalışırlar. Bu cür təbliğatların qarşısının alınmasında maarifləndirmə tədbirlərinin vacibliyini qeyd edən Komitə sədri maarifləndirici sənədli filmlərin də radikal qruplara qoşulanların sayının azalmasına təsir göstərəcəyini deyib. Qeyd olunub ki, dini radikalizmin qurbanı olan insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilən şəxslərin timsalında bu problemin cəmiyyət və dövlət üçün nə qədər təhlükəli olduğu "Fitnə" filmi vasitəsilə dolğun şəkildə göstərilir. Eyni zamanda, Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olan birlik və bərabərlik, xalqımızın tolerantlıq ənənələri, dövlətin bu sahədə həyata keçirdiyi siyasətin mahiyyəti qısa, lakin aydın şəkildə işıqlandırılır. M.Qurbanlı dini radikalizmlə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərdən danışaraq bildirib ki, bununla bağlı respublikanın bütün bölgələrində çoxsaylı seminarlar, görüşlər keçirilir, həmçinin, müxtəlif kitablar və digər çap materialları nəşr edilərək yayılır.



Tədbirdə digər çıxış edənlər də filmin əhəmiyyətindən danışıblar.

# Kamal Abdullayev: Azərbaycandakı "Multikulturalizm ili" bir sıra ölkələrdə multikultural əhval-ruhiyyənin möhkəmlənməsinə səbəb oldu

**Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri akademik Kamal Abdullayev başa çatmaqda olan "Multikulturalizm ili" ilə əlaqədar AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.**

**- Dünyada etnik, dini münaqişələrin tüğyan etdiyi bir zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməsi beynəlxalq ictimaiyyətə hansı mesajları çatdırdı? Ümumiyyətlə, mesajlar ünvana çatdımı?**

- Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi ölkəmizdə böyük ruh yüksəkliyi ilə qarşılandı. Bu, həmçinin beynəlxalq aləmdə çox müsbət dəyərləndirildi. Biz bir daha öz milli-mənəvi, tarixi dəyərlərimizi dünya ictimaiyyətinə çatdırmaq şansı əldə etdik. Həmçinin bir daha özümüzün özümüzə nəzər salmaq fürsətimiz oldu, öz imkan və arzularımızı bir daha reallıqla uzlaşdırmağa çalışdıq.

Eyni zamanda, biz tərəfdən təqdim edilən bəzi layihələrin işığında xarici ölkə qurumlarında çalışan müxtəlif insanlar, tələbələr, din xadimləri bir daha öz ölkələrindəki multikultural mühiti diqqətdən keçirməyə başladılar. Beləliklə, Azərbaycandakı "Multikulturalizm ili" dünyanın bir sıra ölkələrində multikultural əhval-ruhiyyənin möhkəmlənməsinə, multikultural ab-havanın öyrənilməsinə, hətta müqayisə və saf-çürük edilməsinə səbəb oldu. Qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyevin mesajları ünvanına çatdı.

**- Məlumdur ki, 25 il bundan əvvəl müstəqilliyinə yenidən qovuşmuş Azərbaycan dövləti hər zaman multikulturalizm siyasətinə sadiqlik nümayiş etdirib. Siz dəfələrlə vurğulamısınız ki, Ulu Öndər Heydər Əliyev ölkəmizdə siyasi multikulturalizmin banisidir. Belə olduğu təqdirdə məhz bu ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması hansı zərurətdən irəli gəlirdi?**

- Əlbəttə ki, Ulu Öndər Heydər Əliyev ölkəmizdə siyasi multikulturalizmin banisidir. Dəfələrlə qeyd edilib ki, multikultural dəyərlər Azərbaycan xalqına tarixən xas olan keyfiyyətlərdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) bununla bağlı bir kitab da hazırlayıb - "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları". Bu kitabda uzun əsrlərdən bəri Azərbaycan yazıçılarının, şairlərinin yaradıcılığında, xalq dastanlarında olan multikultural əhval-ruhiyyə öz əksini tapıb - ya bir qəzəl, ya qəzəlin hansısa bir beyti, misrası kimi, ya da bütövlükdə bir poema, dastan şəklində. Xalqımızın görkəmli ədəbi, elmi, siyasi xadimləri öz millətindən, öz dinindən olmayan dəyərlərə və insanlara həmişə yüksək tolerantlıq və yüksək səmimiyyətlə yanaşıblar. Bunun özü elə multikulturalizmin canını, mayasını təşkil edən xüsusiyyətdir. Amma siyasi cəhətdən multikulturalizm sistemli şəkildə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən dövlətçiliyimizin ideoloji əsaslarından birinə çevrildi. Əvvəl də siyasi cəhətdən multikultural cəhdlər edilirdi. Azərbaycan Demokratik Respublikası dövründə multikulturalizmlə bağlı bəzi qərarlar da qəbul edilmişdi. Amma bu, pərakəndə şəkildə idi. Təəssüf ki, Azərbaycan Demokratik Respublikasının ömrü də çox az oldu.

Müstəqillik illərində Prezident Heydər Əliyev həm Konstitusiyanın ayrı-ayrı bəndlərində, həm də ayrıca sənədlərdə sistemli şəkildə multikultural siyasətlə, yəni Azərbaycanda yaşayan başqa xalqların taleyi, tarixi, mədəniyyəti, dili, mənəviyyatı ilə bağlı bir-birini tamamlayan qanunlar və sərəncamlar imzaladı, onların həyata keçməsinə nail oldu.

Azərbaycanın müxtəlif bölgələrində yaşayan xalqların maddi rifahının, iqtisadi-təsərrüfat durumunun yaxşılaşdırılması ilə bağlı qəbul edilən digər qərarlar da, icra edilən layihələr də, əlbəttə ki, Ulu Öndərin böyük siyasi fəaliyyətinin nəticəsi idi və daim onun diqqət mərkəzində dururdu. Eyni zamanda, bu sistemli fəaliyyət həmin bölgələrdə yaşayan müxtəlif xalqların, bütövlükdə azərbaycanlıların həyat tərzinin, mənəvi həyatının yaxşılaşdırılmasına xidmət edirdi.



Nə üçün məhz bu il Azərbaycanda "Multikulturalizm ili" elan edildi? Əlbəttə, bu da maraqlı sualdır. Ola bilər, dünyada getdikcə daha çox özünə yer edən multikultural maraqlar buna səbəb oldu. Amma hər halda mənə elə gəlir ki, multikulturalizm energiyası cəmiyyətimizin bütün təbəqələrinin canında, ruhunda elə bir ehtirasla yığılıb qalmışdı ki, onun çıxış yolu tapması, qarşıdakı bəndlərin aradan götürülməsi, geniş həyat mövqeyinə çıxarılması üçün məhz bu il daha uğurlu il kimi qəbul edilə bilər. Çünki bunun bir sıra obyektiv səbəbləri də var. Mənə elə gəlir ki, bu gün dünyada BMT-nin Sivilizasiyalar Alyansı ilə bağlı həyata keçirdiyi silsilə tədbirlər, Bakı Beynəlxalq Humanitar Forumunun, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun artıq güc yığması və möhkəm ənənəyə çevrilməsi, dünyanın mütərəqqi qüvvələrini özündə birləşdirən "Bakı prosesi"nin ümidlə başlayıb inamla davam etməsi və başqa möhtəşəm tədbirlər ona gətirib çıxardı ki, prinsip etibarilə, onların məntiqi davamı olaraq bu il "Multikulturalizm ili" elan edildi.

**- "Multikulturalizm ili" çərçivəsində Azərbaycan multikulturalizminin dünyaya təqdim olunması istiqamətində hansı addımlar atılıb və atılmaqdadır?**

- Bu istiqamətdə son dərəcə mühüm addımlar atıldı. Ən əsas addımlardan birini mən tədris istiqaməti ilə bağlı söyləyə bilərəm. Bu gün "Multikulturalizm ili"nin verdiyi mənəvi imkanlardan istifadə edərək biz Azərbaycan multikulturalizmini, yəni Azərbaycan psixologiyasını, tarixini, mənəviyyatını, dilini, dinini, mədəniyyətini və bir çox digər sahələri ümumiləşdirib "Azərbaycan multikulturalizmi" adlı bir dərsliyin içinə toplamışıq. Məqsəd odur ki, dərslik bu gün bizim tələbələrimizin və eyni zamanda, xarici ölkələrdə Azərbaycanı öyrənməyə həvəsli olan tələbələrin stolüstü kitabına çevrilsin. Biz öncə Azərbaycan haqqında bu informasiyanı tələbələrə dərs prosesində, auditoriyada çatdırmalıyıq. Bu istiqamətdə BBMM-də ciddi işlər görülür və il ərzində seçim edilərək 15 xarici ölkə universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilib. Bunlar dünyanın son dərəcə tanınmış və qədim tarixə malik universitetləridir. Məsələn, Çexiyada, Litvada, Polşada, Almaniyada, İsveçrədə, İtaliyada, Portuqaliyada, Türkiyədə, İndoneziyada, Rusiyada, Gürcüstanda və başqa ölkələrdə bu gün Azərbaycan multikulturalizmi fənni tədris proqramlarına daxil edilərək xarici universitet gənclərinin diqqətinə çatdırılır və gənclər bununla Azərbaycana olan maraqlarını Azərbaycana olan sevgi ilə əvəz edirlər. Hər halda biz buna çalışırıq.

BBMM öz işini bununla bitmiş hesab etmir. Xarici gənclərə Azərbaycan multikulturalizmi ilə bağlı nəzəri biliklər verməkdən əlavə, biz o gəncləri ildə iki dəfə Azərbaycana yay və qış multikulturalizm məktəblərinə dəvət edirik. O gənclər ki, Azərbaycan haqda ümumi məlumatı öz universitetlərində alıblar, fənnin tədrisi bitəndən sonra onlar Azərbaycana gəlir, gündən-günə gözəlləşən Bakımızı görür, müxtəlif bölgələrimizdə olur, orada yaşayan azsaylı xalqların adət-ənənələri, mənəvi dəyərləri ilə zəngin olan müxtəlif mərasimlərdə iştirak edirlər. Eyni zamanda, Azərbaycan xalqının kədərli gününü təcəssüm etdirən memoriallarda olurlar. Məsələn, biz onları həmişə Quba Soyqırımı Memorialına aparırıq. Onlar Azərbaycan xalqının bu qanlı tarixi səhifəsi ilə tanış olur, bu mərd və iradəsi qırılmaz xalqı, başına gələn müsibətlərə sinə gərməyi bacaran xalqı daha yaxından tanıyırlar.

Beləliklə, bu gənclər Azərbaycanla bu şəkildə tanış olmaqla öz nəzəri biliklərini praktik biliklərlə tamamlayırlar. Buna görə də elə güman edirəm ki, multikulturalizmin yay və qış məktəblərinin böyük əhəmiyyəti var. Bu, həm də onda özünü göstərir ki, həmin multikulturalizm məktəblərində müxtəlif Azərbaycan universitetlərindən olan gənc tələbələr, bundan əlavə, məktəblərin keçirildiyi bölgələrin gəncləri iştirak edirlər. Onlar arasında yaranan münasibətlər, dostluq əlaqələri sonra da davam edir. Bunu təsdiq edən bir fakt kimi onu qeyd edim ki, son multikulturalizm məktəbində maraqlı bir hadisə baş verdi. Xarici tələbələr öz təşəbbüsləri ilə Azərbaycanın Gənc Dostları Klubunu yaratdılar. Klubun rəhbərləri bir litvalı və bir yunan tələbə oldu. İndi o klubun saytı da fəaliyyət göstərir. Klubun yüzdən çox üzvü də var. Onlar indi Azərbaycanın mövqeyini azərbaycanlıdan daha əvvəl müdafiə etməyə hazırdırlar. Biz bunun dəfələrlə şahidi oluruq. Məsələn, Amerikada Azərbaycanın xeyrinə bir məqalə çıxanda və ermənipərəst qüvvələr o məqalənin müəllifinə hücumlar təşkil edəndə, onların cavabını ilk növbədə Azərbaycanın gənc dostları klubunun üzvləri verməyə cəhd göstəriblər və buna müvəffəq də olublar. Elə güman edirəm ki, bu layihə çox böyük gələcəyə və perspektivə malikdir.

Azərbaycan multikulturalizminin xarici ölkələrdə təqdimi ilə bağlı bir maraqlı layihəni də qeyd etmək olar. Biz öz din xadimlərimizlə başqa ölkələrin din xadimlərinin mütəmadi görüşlərini təşkil edirik. Məsələn, Qafqaz Müsəlmanları İdarəsinin rəhbərliyi və şeyximiz Hacı Allahşükür Paşazadə özü, Azərbaycandakı Pravoslav Kilsəsinin, Azərbaycan katoliklərinin, Azərbaycan udilərinin, Azərbaycan dağ və Avropa yəhudilərinin rəhbər və nümayəndələri, ictimaiyyət nümayəndələri, milli icmaların rəhbərləri bu görüşlərdə iştirak edirlər. Bu görüşlər İsveçdə, Almaniyada, İspaniyada, İngiltərədə, Rusiyada keçirilib. Təcrübə onu göstərir ki, bu görüşlər həmin ölkələrin din və dövlət xadimləri tərəfindən son dərəcə böyük maraqla qarşılanır. Əlbəttə ki, Azərbaycan multikulturalizmi bir model kimi dünya ictimaiyyətinin diqqətinə bir daha bu şəkildə çatdırılır. Azərbaycan multikulturalizmi müzakirələri Azərbaycan həqiqətləri haqda söhbətlərə çevrilir.

Prezident İlham Əliyevin Azərbaycan multikulturalizmini dövlət siyasəti səviyyəsinə qaldırması və bunun ölkədəki təzahürləri dünyanın bir çox ziyalıları, dövlət xadimləri üçün son dərəcə maraqlıdır. Onlar Azərbaycanda multikulturalizmin təntənəsini dərk etməyə çalışırlar. Azərbaycanda multikultural təhlükəsizliyin prinsiplərini öyrənirlər. Qarşılıqlı fayda gətirən bu görüşlər, güman edirəm ki, həmişə davam edəcək.

Başqa bir layihə kimi onu qeyd edə bilərəm ki, bu il artıq BBMM-in xarici ölkələrdə filialları yaranmağa başladı. Bu gün bu filiallar Portuqaliyada, İtaliyada, Rusiyada, Gürcüstanda, İsraildə, Moldovada, Bolqarıstanda və Almaniyada fəaliyyət göstərir. Bu, o deməkdir ki, həmin ölkələrin ziyalıları Azərbaycan multikulturalizmini öz ölkələrində dəstəkləməyə və təbliğ etməyə hazırdırlar.

Azərbaycan multikulturalizminin təbliği bəzən başqa ölkələrdə yerli şəraitdə multikultural mühitin öyrənilməsi işində katalizator rolunu oynayır. Məsələn, Almaniyanın Auqsburq Universitetində biz "Azərbaycan multikulturalizmi" fənnini tədris etməyə başlayanda universitetin professoru, mənim dostum, görkəmli alman dilçilərindən biri professor Klaus Volf dedi ki, olarmı mən bu fənnin tədrisi zamanı alman multikulturalizmi ilə müqayisə və paralellər aparım? Biz buna çox məmnun olduq və bir daha inandıq ki, Azərbaycan multikulturalizmi başqa ölkələrdə multikulturalizm mühitinin öyrənilməsi üçün təkanverici qüvvəyə çevrilir. Hətta biz "Azərbaycan multikulturalizmi" adlı dərsliyin yazılmasına həmin ölkələrin mütəxəssislərini də cəlb etdik. Bu yaxınlarda işıq üzü görəcək bu dərslik həm yerli, həm də beynəlxalq müəlliflərdən ibarət mütəxəssislər tərəfindən yazılıb.

Digər bir layihə "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasıdır. Bu qaynaqlardan biri olan "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" artıq işıq üzü görüb. O, həm də rus dilinə tərcümə edilərək nəşr olunub. İngilis dilində isə yaxın günlərdə nəşr ediləcək. Bundan başqa, o seriyadan olan "Azərbaycan multikulturalizminin elmi, fəlsəfi və publisistik qaynaqları", həmçinin "Azərbaycan multikulturalizminin hüquqi və siyasi qaynaqları" kitabları da artıq nəşrə hazırdır. Bu, çox böyük bir layihədir, yaxın zamanlarda bu nəşrlər ictimaiyyətə təqdim ediləcək.

Layihələrin bir istiqaməti də ölkəmizdəki elm mərkəzlərində, xüsusilə AMEA-da və universitetlərdə Azərbaycan multikulturalizmi şöbələrinin, kafedralarının və mərkəzlərinin açılması ilə bağlıdır. Bu dövrdə AMEA-nın Fəlsəfə İnstitutunda, Folklor İnstitutunda müvafiq şöbələr, Bakı Slavyan Universitetində Azərbaycan multikulturalizmi kafedrası, Qafqaz Universitetində "Azərbaycan multikulturalizmi" Elm-Tədris Mərkəzi yaradılıb, eyni zamanda Gəncə şəhərində Azərbaycan Texnologiya Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetində müvafiq kafedralar yaradılıb. Elə güman edirəm ki, Azərbaycan multikulturalizmi fənninin Azərbaycan universitetlərində tədris proqramlarına salınması çox vacibdir. Çünki Azərbaycanın humanitar yönümlü universitetlərində, məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti kimi universitetlərdə ədəbiyyat,

⇨ 5

# Kamal Abdullayev: Azərbaycandakı “Multikulturalizm ili” bir sıra ölkələrdə multikultural əhval-ruhiyyənin möhkəmlənməsinə səbəb oldu

**Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri akademik Kamal Abdullayev başa çatmaqda olan “Multikulturalizm ili” ilə əlaqədar AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.**

⇐4 dilçilik, türkologiya, mədəniyyətşünaslıq dərsləri tədris olunursa, bir sıra universitetlərdə, məsələn, Texniki Universitetdə, Tibb və İqtisad universitetlərində bu, belə deyil. Bu tipli universitetlərdə təhsil alan gəncin bütöv şəkildə formalaşması üçün tarixlə, dil və ədəbiyyatla, mədəniyyətlə bağlı biliklərin böyük əhəmiyyəti var. Bu istiqamətdə də, güman edirəm ki, Azərbaycan multikulturalizmi fənni tədris edildiyi universitetlərdə tədris ili başa çatanda bitməyəcək və bu, uzunömürlü prosesə çevriləcək.

Bu sahədə çox böyük işlər görən Heydər Əliyev Fondunun fəaliyyətini də xüsusi vurğulamaq lazımdır. Azərbaycanın multikulturalizm və tolerantlıq modelini dünya ictimaiyyətinə təqdim etməyin ən yeni formatını heç şübhəsiz ki, Heydər Əliyev Fondu və bu Fondun prezidenti, ölkəmizin birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ortaya qoyub. Mehriban xanım Əliyeva öz mütərəqqi və insanpərvər ideyaları ilə Pakistanda, Misirdə, Rusiyada, Gürcüstanda və başqa ölkələrdə təhsilin inkişafına töhfələr verərək orada məktəb tikintisi və bərpası işlərini həyata keçirib. Uğurlu “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Fondun dəstəyi ilə ölkədəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb. Bakıda yəhudi uşaqları üçün təhsil kompleksi istifadəyə verilib. Fransa regionlarında kilsələrin, Luvr muzeyinin, müqəddəs Roma katakombalarının, Kapitoli muzeyinin bərpasında Heydər Əliyev Fondu iştirak edib, məhz onun təşəbbüsü və dəstəyi ilə Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidə ucaldılıb. Bu işlər ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin dərinləşməsinə xidmət edir. Azərbaycanı tolerant və multikultural ölkə kimi dünyaya bir daha yaxından tanıdır, ona böyük hörmət qazandırır.

**- Prezidentin Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planı necə icra edildi? Tədbirlər planında adı çəkilən qurumların müştərək fəaliyyəti və onların koordinasiya işləri necə tənzimləndi?**

- Əvvəlcə 2016-cı il üçün nəzərdə tutulan Tədbirlər Planı müəyyənləşdi. Ölkə Prezidenti bu Tədbirlər Planını öz Sərəncamı ilə təsdiq etdi və burada koordinasiya işləri BBMM-ə həvalə edildi. Qeyd etmək istəyirəm ki, il boyu müxtəlif nazirliklər, elmi tədqiqat ocaqları, elmi mərkəzlər, universitetlər, dini qurumlar, milli icmalar, müxtəlif ictimai təşkilatlar son dərəcə böyük həssaslıq və entuziazmla öz üzərlərinə düşən işləri həyata keçirdilər. Heç bir qurumu ayrıca qeyd etməyə ehtiyac yoxdur. Çünki onlar hamısı eyni şəkildə öz işlərinin öhdəsindən gəldilər. Bu işin məsuliyyətini və bütövlükdə Azərbaycan üçün faydasını dərk etdilər, cənab Prezidentin qarşıya qoyduğu ideoloji, mənəvi hədəfləri aydın şəkildə gördülər. Çünki o hədəflər çox aydın və dəqiqliklə göstərilmiş hədəflər idi. Bu hədəflərə doğru Azərbaycan cəmiyyəti, Azərbaycan dövləti, hökuməti, ictimai təşkilatları hamısı birlikdə möhtəşəm bir addım atdı.

**- Ta qədimdən ölkəmizin ərazisində multikultural dəyərlərin, tolerantlığın kök atması, oturuşması onu göstərir ki, dövlətimiz bu dəyərləri kənardan əxz etməyib, dövlət siyasətinə çevrilmiş bu dəyərlər məhz xalqımızın mənəvi varlığından qaynaqlanır. Azərbaycanı dünyada multikulturalizmin “qibləsi”nə çevirmək üçün bundan sonra hansı işlərin görülməsi nəzərdə tutulub?**

- Azərbaycan artıq dünyada multikulturalizmin mərkəzlərindən birinə çevrilməkdədir. Əlbəttə ki, bu gün dünyada multikulturalizmlə bağlı iki qütbün formalaşmasını görməmək mümkün deyil. Bu qütblərdən birini mən bədbin, digərini isə nikbin qütb adlandırardım. Multikulturalizmin bədbin qütbünü İngiltərənin keçmiş Baş naziri Devid Kemeron Münhendəki çıxışında formalaşdırdı. Hətta onun bu konfransdakı çıxışı belə ad altında çap edildi: “Mənim multikulturalizmə qarşı müharibəm”. Həqiqətən də bu, bir müharibə idi. Çünki İngiltərədə, Fransada, Almaniyada multikulturalizmin bu cür bədbin şəkildə qəbul edilməsinin bir səbəbi də burada yaşayan başqa xalqların o ölkələrin multikultural, mədəni, mənəvi həyatına inteqrasiya olmama istəklərinə əsaslanırdı. Bu, o deməkdir ki, İngiltərədə, Fransada, Almaniya və digər Avropa ölkələrində qarşıdurma güclənir, mədəniyyətlərin bir-birini tanımaması halı artır, ksenofobiyanın, islamofobiyanın, antisemitizmin, neofaşizmin “çiçəklənməsi” üçün şərait yaranır. Multikulturalizmin bu ölkələrdə iflasını qeyd edən Kemeron, eyni zamanda bədbin qütbün formalaşdırılmasını da şərtləndirən müddəalarla çıxış etdi. Faktiki olaraq o ölkələrdəki multikulturalizmə bədbin siyasi münasibət var, orada hər hansı qarşıdurmanı görmək elə də çətin deyil.

Amma bu bədbin qütbə qarşı dünyada nikbin bir qütb də formalaşmaqdadır. Bu nikbin qütbü Azərbaycan Prezidenti İlham Əliyev öz şəxsində təmsil edir və Azərbaycanda multikulturalizmin təntənəsini onu dövlət siyasətinə çevirməklə reallaşdırır. Prezident İlham Əliyevin bu sözləri son dərəcə önəmlidir: “Bu gün dünyada multikulturalizmin alternativi yoxdur”. Elə buna görə də Prezident öz xalqının çoxəsrlik multikultural ənənələrinə əsaslanaraq 2016-cı ili “Multikulturalizm ili” elan etdi və biz inanırıq bu ilin daxili, mənəvi tutumu, energiyası elədir ki, ölkədə mövcud olan multikultural həyat öz davamını o biri illərdə də sürəcək.

**- Azərbaycan dövlətinin multikulturalizm və tolerantlıq kimi dəyərlərə xüsusi önəm verməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yolunda ölkəmizə hansı dividendlər qazandırır?**

- Baxın, Azərbaycan dövləti hansı istiqamətdə addım atırsa, bütövlükdə bunu bizim ən vacib məqsədimizin həyata keçməsi – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yolunda edir. Multikulturalizm və tolerantlıq kimi dəyərlərin dövlət siyasəti səviyyəsinə qaldırılması dünyaya Azərbaycanı daha da yaxından tanıtmaq imkanı verir. Azərbaycanın dostlarının, xüsusən gənc dostlarının sayını artırır. Bu, bir reallıqdır. Bu dostlar Azərbaycan həqiqətlərini bizdən əvvəl deməyə hazır olan bir quruma çevrilirlər.

Xatırlayıram, Ulu Öndər ilk prezidentlik dövründə hansı xarici ölkə rəhbəri ilə görüşürdüsə, coğrafiya müəlliminin çubuğu ilə xəritə qarşısında duraraq Azərbaycan haradadır, Azərbaycan-Ermənistan sərhədi haradan keçir, Dağlıq Qarabağ harada yerləşir – bütün bunlar barədə, Ermənistanın Azərbaycana qarşı təcavüzünün mahiyyəti haqqında məlumat verirdi. İndi bəlkə də belə məlumatlara ehtiyac yoxdur, çünki Ulu Öndər öz vəzifəsini layaqətlə, şərəflə yerinə yetirdi. Ona görədir ki, Azərbaycan həqiqətini bu gün bütün dünya qəbul edir. Biz bilirik ki, bu gün ölkəmiz öz ərazi bütövlüyünü tam bərpa edə bilər. Amma bizim öz problemimizi güc yolu ilə həll etməməyimizin bir səbəbi də var. O səbəb dünya xalqlarına və dünya ictimaiyyətinə olan hörmətimizlə bağlıdır. Sülh yolu ilə həlli beynəlxalq qurumlar, dövlətlər önə çəkir. Dünyada demək olar ki, hamı bu yolu məsləhət bilir. Azərbaycan Prezidenti də bütün fəaliyyətini bu istiqamətdə qurur.

**- Son illər baş verən hadisələr nəticəsində Avropa ölkələrinə axın edən insan köçü Qərb siyasi elitasını çətin suallar qarşısında qoyub. Sizcə, bu ölkələr öz ərazilərində gəlmələrin özəlliklərini qorumaq qayğısınamı qalmalıdır, yoxsa həmin icmalar sürətlə Avropa cəmiyyətinə inteqrasiya olunmalıdır?**

- Multikulturalizmin bəzi ölkələrdə iflasa uğramasının mən deyərdim ki, bir sıra obyektiv səbəbləri də var. Faktiki olaraq multikulturalizm müxtəliflik və müxtəlifliklərin münasibəti deməkdir. İki insan varsa, artıq burada multikultural situasiya var. İki dünyagörüşü varsa, multikultural situasiya mövcuddur. Ortalıqda bir tərcümə kitabı varsa, bu, artıq multikultural şəraitin bəhrəsidir. Biz başqa ölkələrdəki multikultural əhvalın iflasa uğramasının səbəblərini bilmək istəyiriksə, multikulturalizmin mahiyyətinə varmalıyıq. Mənim fikrimcə, müxtəliflik iki cür olur: ilkin müxtəliflik və sonrakı müxtəliflik. İlkin müxtəliflik əsrlərdən bəri müxtəlif xalqların, müxtəlif mədəniyyətlərin, müxtəlif əxlaqların bir-birinin yanında olub bir-birinə yardım etməsinin üzərindən yüksəlir. Bu, Azərbaycan mühiti üçün son dərəcə anlayışlı bir situasiyadır. Biz bilirik ki, əsrlərdən bəri bu torpaqlarda müxtəlif mədəniyyət daşıyıcıları bir yerdə yaşayıblar. Buna görə də bu müxtəliflik onları bir-birindən ayırmağa gətirib çıxarmayıb. Münaqişələr olubsa da, bu münaqişələr həll də edilib. Bəlkə də daha kəskin qarşıdurmalar olub. Lakin hər şey bir vahidin, bir bütövün içərisində həll olunub. Anlaşılmazlıqlar tarixə qovuşub. Artıq bu gün biz həmin müxtəlifliklərin bir vahid, yekrəng məxrəcə gəldiyinin şahidiyik.

Bəzi ölkələrdə isə təəssüf ki, belə deyil. O ölkələrdəki müxtəliflik sonrakı müxtəliflikdir. Belə bir şəraitdə ingilis mədəniyyəti ilə hind mədəniyyəti, fransız mədəniyyəti ilə ərəb mədəniyyəti, alman mədəniyyəti ilə türk mədəniyyəti üzbəüz gəlir. Burada isə qarşıdurma başlayır. Günümüzdə baş verən bu qarşıdurmalar iki dolğun mədəniyyətin bir-biri ilə barışmamasının, bir-birinə qovuşmaq istəməməsinin nəticəsidir. Mən bir şeyi xatırlayıram. Bizim Sabirabad rayonunun Suqovuşan kəndində Araz və Kür çayları bir-biri ilə qovuşur. Mən orada çox maraqlı bir hadisə müşahidə etmişəm. Bu çaylar bir məcraya düşəndən sonra Arazın bir az qırmızımtıl suyu Kürün suyu ilə bir müddət yanaşı axır, hər biri öz rənginin içində. Sonra, əlbəttə ki, bunlar bir-birinə qarışırlar. Bax, həmin qarışmamaq məsələsini, çayların bir-birinin yanında getdiyi olduqca maraqlı təbiət hadisəsini cəmiyyətə də tətbiq etmək mümkündür. Yəni, bir-birinə qarışa bilməyən, inteqrasiya olunmayan mədəniyyətlər məhz sonrakı müxtəlifliklərin obyektiv nəticəsidir. Azərbaycanda isə bizim bəxtimizdən bu müxtəliflik problemi olubsa da vaxtilə həll edilib. Qədim dövrlərdən Azərbaycanda müxtəlif mədəniyyətlər, müxtəlif millətlər bir-birinin yanında formalaşıblar, hətta bir-birini formalaşdıra-formalaşdıra inkişaf ediblər.

İnteqrasiya məsələsini heç zaman qanunla, əmrlə, direktivlə tənzimləmək mümkün deyil. Bu, zamanla mümkün olur. Həmin o çaylar necə ki bir-birinin yanında gedəndə onlara əmr etmirlər, onları hansısa texniki vasitə ilə bir-birinə qatmırlar, o şəkildə də bir-birinə beləcə rast gələn cəmiyyətlərin, mədəniyyətlərin inteqrasiyası ya baş tutur, ya da yox. Hansısa təbəqələrdə, hansısa fərdlərdə bu, baş tutur, bütövlükdə baş tutmaya da bilər. Yaxud bütövlükdə baş tutar, bəzi insanlar arasında münaqişələr isə ola bilər. Bu, son dərəcə individual yanaşma tələb edən bir məsələdir.

**- Biz tolerantlığı multikulturalizmin əsası kimi götürürük. Tolerantlıq deyir ki, bəyənmədiyinə döz, amma sözsüz ki, burada istisnalar var. Bizdə tolerantlıq və multikulturalizm necə başa düşülür?**

-Tolerantlığı, adətən, “dözümlülük” kimi tərcümə edirlər. Amma məncə, Azərbaycan reallığı ilə bağlı “dözümlülük” sözü yerinə düşmür. Çünki biz nəyə dözürük? Prezident İlham Əliyev qeyd edir ki, ondan xarici qonaqlar tez-tez təəccüblə soruşurlar, sizdə necə olur ki, müsəlmanlar, xristianlar, yəhudilər bir-biri ilə belə mehribandırlar? Bir-birinə qonaq gedirlər, birlikdə yemək yeyirlər, bir-birinin dərdinə acıyır, bir-biri ilə qardaş kimi davranırlar. Cənab Prezidentin bu suala cavabı da maraqlıdır. O, cavab verir ki, bəs başqa cür necə ola bilərdi ki?!

Bəli, hər bir azərbaycanlı bu suala təəccüb edə bilər. Yəni, insani münasibətlər varsa, əgər bir xalq öz daxilində “öz-özgə” qarşıdurmasının üstündən adlayıb keçibsə, bu qarşıdurmanın şüşə kimi adamı kəsən məqamları artıq onu narahat etmirsə, bu insan mənəvi cəhətdən özünə inamlı və rahatdırsa, başqasına özü kimi baxa bilirsə, başqasının dərdinə acıya bilirsə, başqasına şəfqət və mərhəmət nümayiş etdirə bilirsə, mənə elə gəlir, bu insan və onun məxsus olduğu xalq artıq multikulturaldır. Bunu bizim dünənimiz, bu günümüz göstərir, inanıram, gələcəyimiz də göstərəcək. Biz heç nəyə dözmürük, biz bunu, sadəcə olaraq, yaşayırıq.

**- Təqvim ili sona çatır və bununla bir il ölkəmizdə elan olunan “Multikulturalizm ili” də sona çatır. Amma biz hələ Azərbaycan multikulturalizm modelinin öyrənilməsi və dünyada təbliği ilə bağlı işlərin səylə davam etdirildiyinin şahidiyik. Bu işi hansı forma və müstəvilərdə davam etdirməyi düşünürsünüzmü?**

- Doğrudur, artıq biz təqvim ilinin sonundayıq və 2016-cı il bitmək üzrədir. Amma məncə, Azərbaycanda təqvim ili bitsə də, multikulturalizm ideyaları, multikultural ruh, Azərbaycan multikulturalizminin daxili energiyası hələ uzun illər, uzun əsrlər davam edəcək. Bu, artıq qarşısıalınmaz bir prosesdir və azərbaycanlının başqa dinin, başqa millətlərin nümayəndəsinə münasibətindən, bəşəri dəyərlərə sədaqətindən, öz daxilindəki “öz və özgə” qarşıdurmasının kəskinliyini aradan qaldırmasından tutmuş bütün bəşəri dəyərlərə olan münasibəti, elə güman edirəm ki, xalqımızı dünya ictimaiyyətinin, bütün dünyanın gözündə ucaldan cəhətlərə dönəcək.

Əlbəttə ki, cənab Prezidentin siyasi uzaqgörənlik və müdrikliklə qarşıya qoyduğu hədəflər Azərbaycanın inkişafı, bu günü və gələcəyi üçün son dərəcə mühümdür. Biz o hədəflərə doğru inamla getdik və gedəcəyik. Təqvim ilinin sona çatması multikulturalizm energiyasını cəmiyyətin daxilindən çıxarıb atmaq demək deyil. Cəmiyyət öz multikultural və tolerantlıq idealları uğrunda həmişə yaşamağa və mübarizə aparmağa hazır vəziyyətdə olacaq. Azərbaycan bunu tarixinin ən keşməkeşli vaxtlarında sübut edib, bu gün də sübut edir, sabah da sübut edəcək.

**- Multikultural adam. Onu necə təsvir edərdiniz?**

- Əti ilə, qanı ilə bu torpaqdan olub, millətindən, dinindən, dilindən asılı olmayaraq bir azərbaycanlı kimi. Bütün dünyanı öz qəlbinə yığan, aləmin dərdini çəkməyə hazır olan azərbaycanlı kimi. Hamını, görüb-tanıdıqlarını, görməyib-tanımadıqlarını sevən, şəfqət, acıma, səmimiyyət və etibar hisslərini özündə qoruyan azərbaycanlı kimi. Ümidlə yaşayan azərbaycanlı kimi.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 2016-cı ildəki fəaliyyəti ilə bağlı hesabat verib

**Dekabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ilin yekunlarına dair mətbuat konfransı keçirilib.**



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı cari ildə görülən işlərdən danışıb. O bildirib ki, Komitə 2016-cı il "Multikulturalizm ili" çərçivəsində Prezident İlham Əliyevin təsdiq etdiyi müvafiq "Tədbirlər Planı"na uyğun olaraq, ölkədə və beynəlxalq səviyyədə ardıcıl iş aparıb.

Qeyd edilib ki, cari ildə 101 İslam, 4 qeyri-İslam olmaqla, dövlət qeydiyyatına alınmış dini icmaların ümumi sayı 749-a çatıb. İndiyədək dövlət qeydiyyatından keçmiş dini qurumlardan 721-i İslam, 28-i qeyri-İslam təmayüllüdür. Nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın, audio və videomateriallaların, mal və məmulatların, dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması ilə əlaqədar razılığın verilməsi ilə bağlı 33 müraciət daxil olub. Bunlardan 24 sənəd qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarılıb. Ümumilikdə 2016-cı ildə 9 ixtisaslaşdırılmış satış məntəqəsinə razılıq verilib.

Diqqətə çatdırılıb ki, il ərzində Komitədə 1451 adda dini məzmunlu ədəbiyyata baxılaraq dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 55 adda kitabın ölkəyə idxalına razılıq verilməyib. Ölkədə çap olunmaq məqsədilə 240 adda dini ədəbiyyat ekspertizadan keçirilib, onlardan 3-də dini dözümsüzlüyü təbliğ edən fikirlər aşkarlandığından çapı məqsədəuyğun sayılmayıb. Dini təyinatlı ədəbiyyat, audio və videomateriallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarına nəzarət markası ilə markalanması işinin təşkili istiqamətində tədbirlər davam etdirilib. Belə ki, 379 adda dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib. Hüquq-mühafizə orqanlarından dinşünaslıq ekspertizasına göndərilmiş 689 adda dini ədəbiyyata baxılaraq, onlardan 330 adda dini ədəbiyyatın zərərli olduğu, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyənləşib. Komitə tərəfindən milli-mənəvi dəyərlərimizin, o cümlədən ölkəmizdə mövcud olan tolerant və multikultural ənənələrin təbliği, dini radikalizmin fəsadları və s. mövzularda maarifləndirici kitab və broşürlər nəşr olunub. Hüquq-mühafizə orqanları, o cümlədən Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə dini radikalizmlə mübarizə istiqamətində 50-dən artıq tədbir həyata keçirilib. Həmçinin Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə birgə cəzaçəkmə müəssisələrində məhkumların vicdan və dini etiqad azadlıqlarına dair maarifləndirmə işinin aparılması məqsədilə 30-dan çox tədbir təşkil olunub. Dövlət Sərhəd Xidməti, Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə dini radikalizmlə mübarizənin effektivliyinin artırılması məqsədilə 24 tədbir keçirilib.

Vurğulanıb ki, Komitə dini maarifləndirmə istiqamətində Qafqaz Müsəlmanları İdarəsi ilə yaxından əməkdaşlıq edib və bu qurumla birgə 11 tədbir həyata keçirib. Ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli Sərəncamına əsasən 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Dini Qurumalarla İş üzrə Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb. Cari ildə Sərəncamda göstərilən istiqamətlər üzrə maarifləndirmə işinin təşkili üçün dini icmaların təqdim etdiyi layihələrin maarifləndirmə və ideoloji baxımdan dəyərləndirilməsi həyata keçirilib və 68 layihənin hazırlanmasına metodiki dəstək verilib. İndiyədək İslam dini icmaları tərəfindən təqdim edilən 137 layihə maliyyələşdirilib.

DQİDK-nın sədri vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq 12 mərkəzi şəhərdə qəbul keçirib. Qəbullarda əsasən dini icmaların dövlət qeydiyyatı, dini icmalara maliyyə yardımının ayrılması, məscid və dini icmaların kitablarla təmin edilməsi, "Quran" kurslarının təşkili, məscidlərin təmiri, dini məzmunlu məhsulların satışı üzrə ixtisaslaşdırılmış məntəqələrin yaradılmasına razılıq verilməsi və s. məsələlərlə bağlı olub.

# Daha 10 dini icmaya maliyyə yardımı ayrılıb



**Dekabrın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış daha 10 dini icma sədrinin iştirakı ilə toplantı keçirilib.**

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Prezident cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədi ilə dini icmalara maliyyə yardımı göstərmək üçün imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən danışıb.

S.Salahlı dini icmalara həyata keçirəcəkləri layihələr çərçivəsində milli-mənəvi dəyərlərimizi daha geniş şəkildə ictimaiyyətə çatdırmağı, maarifləndirmə işini yerlərdə təkmilləşdirməyi tövsiyə edib. Eyni zamanda, Komitə sədrinin birinci müavini dini icma sədrlərinə məzhəblərarası qarşıdurmaya sövq edən hərəkətlərin qarşısını almağın, rəhbərlik etdikləri icmaların radikalizmlə ideoloji mübarizə istiqamətində fəaliyyət göstərmələrinin, ümummilli maraqlardan çıxış etmələrinin vacibliyini bildirib.



Astara şəhəri "Qum" məscidi dini icması, Bakı şəhəri Xətai rayonu "Mirtağı" məscidi dini icması, Sumqayıt şəhəri Corat qəsəbə məscidi dini icması, Goranboy rayonu Qızılhacılı qəsəbə məscidi dini icması, Göyçay şəhəri "Mərkəz" məscidi dini icması, Sabirabad rayonu Zəngənə kənd məscidi dini icması, İsmayıllı rayon Basqal qəsəbə məscidi dini icması, Quba rayonu II Nügədi kəndi "Hacı Seyid Siracəddin" məscidi dini icması, Masallı rayonu Çaxırlı kənd məscidi dini icması, Salyan rayonu Ərəbqardaşbəyli kəndi "Keçmiş Ərəbbəbirxanlı" məscidi dini icması ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində tədbirlər həyata keçirəcəklər və yerlərdə təşkil edəcəkləri tədbirlərdə iştirakçılara dini maarifləndirmə xarakterli çap məhsulları da təqdim edəcəklər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən indiyədək 155 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 136-sı isə İslam dini icmasıdır.

# Mübariz Qurbanlı: Azərbaycan İslam dəyərlərinin təbliğində və qorunmasında mühüm rol oynayır

Dekabrın 7-də Bakıda "Şeyxülislamlığın tarixi" kitabının təqdimat mərasimi olub.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən keçirilən tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, bir sıra ölkələrin səfirləri, dini icmaların rəhbərləri, elm və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şeyxülislam Allahşükür Paşazadə tədbirdə çıxış edərək bu gün ölkəmizdə müxtəlif dinlər və millətlər arasında mövcud olan qardaşlıq münasibətlərindən danışıb. Qeyd edib ki, mürəkkəb coğrafi-siyasi məkanda yerləşməsinə baxmayaraq, Azərbaycanın yaratdığı uğurlu multikulturalizm və tolerantlıq nümunəsi bu gün artıq beynəlxalq aləmdə mütərəqqi model kimi qəbul olunur və öyrənilir.

QMİ sədri deyib ki, tariximizdə birinci dəfədir belə bir kitab ərsəyə gəlib. Bu kitabın nəşr edilməsi Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasının nümunəsidir. Azərbaycanda şeyxülislamların həyatına böyük önəm verilir. Kitabda şeyxülislamlara tarixi baxımdan yanaşılaraq onların həyatı, fəaliyyəti barədə məlumat verilib. Şeyxülislamlar azərbaycançılığın, milli şüurun formalaşmasında, dövlətçiliyin yaranmasında və qorunub saxlanmasında böyük işlər görüblər.




AMEA-nın prezidenti akademik Akif Əlizadə bildirib ki, din xalqların dünyagörüşünün və mənəviyyatının formalaşmasında mühüm rol oynayır. Ölkəmizdə dinlər arasında olan tolerantlıq münasibətləri hamı üçün müsbət nümunədir. Azərbaycanda şeyxülislamlıq institutu tarixin sınağından çıxıb, şeyxülislamlar cəmiyyətin ağsaqqalları kimi mühüm rol oynayıblar. Bu baxımdan, belə kitabların nəşr edilməsi ilə şeyxülislamlar haqqında cəmiyyətin məlumatlandırılması çox əhəmiyyətlidir.

DQİDK-nın sədri Mübariz Qurbanlı deyib ki, bu kitab din tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edən dəyərli bir mənbədir. Sevindirici haldır ki, bu gün belə bir kitab nəşr edilib. Bir tərəfdən həqiqi dini tariximizi öyrənə bilirik, digər tərəfdən isə İslam dünyasına göstəririk ki, Qafqazın avanqard ölkəsi olan Azərbaycan İslam dəyərlərinin təbliğində və qorunmasında mühüm rol oynayır.

Komitə sədri qeyd edib ki, müəlliflər mənbələri araşdırıb, tarixi faktları üzə çıxarıb və çox maraqlı bir kitab hazırlayıblar. Bu cür kitabların nəşri gələcəkdə də davam etdirilməlidir.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, deputat Fəttah Heydərov elmi ictimaiyyətə və Azərbaycan xalqına sanballı bir kitab təqdim olunduğunu söyləyib. Bildirib ki, bu kitabda 12 böyük din xadimi haqqında məlumatlar yer alıb.

Azərbaycan Prezidenti tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edildiyini xatırladan F.Heydərov bu istiqamətdə aparılan işlərdə şeyxülislam Allahşükür Paşazadənin rolunun böyük olduğunu vurğulayıb.

Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmov şeyxülislamlığın tarixinin 1300 il olduğunu söyləyib. O, kitabda 12 şeyxülislamın həyatının, irsinin geniş araşdırıldığını, ikinci şeyxülislam İrəvaninin həyatından da bəhs edildiyini vurğulayıb. "Əslində şeyxülislamlığın mərkəzi Tbilisidə, Bakıda olub. Ancaq görün İrəvanda nə qədər azərbaycanlı yaşayıb ki, orada da şeyxülislam olub. XIX əsrin sonu, XX əsrin əvvəlində İrəvanda azərbaycanlıların sayının çox olması səbəbindən orada şeyxülislamlıq institutu formalaşıb", - deyə A.Məhərrəmov qeyd edib.

AMEA-nın Tarix İnstitutunun direktoru, akademiyanın müxbir üzvü, Milli Məclisin deputatı Yaqub Mahmudov, Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədri, Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin dekanı akademik Vasim Məmmədəliyev, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli və başqaları kitabın məziyyətlərindən danışıblar. Bu kitabın insanların maariflənməsində xüsusi rol oynayacağı bildirilib. Qeyd edilib ki, kitabda şeyxülislamlıq, şeyxülislam titulunun sahələri və mərhələləri, şeyxülislam titulunun vəzifəyə çevrilməsi, şeyxülislamların vəzifə və funksiyaları, Səfəvi imperiyasında şeyxülislamlıq, şəhər şeyxülislamları, Qafqazın şeyxülislamları və Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin yaradılması ilə bağlı əsasnamələr tədqiq olunub.

Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının qərarı ilə çap olunmuş kitabın müəllifləri professor Anar İsgəndərov və Adil Mövlayi, elmi redaktoru akademik Vasim Məmmədəliyev, rəyçiləri akademik Yaqub Mahmudov, akademik Teymur Bünyadov, filologiya üzrə fəlsəfə doktoru, dosent Qəmərxanım Cavadlıdır.

# Dövlət Komitəsində görüş



**Dekabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı ABŞ-ın aparıcı ali məktəblərinin yəhudi mənşəli tələbələrini birləşdirən məşhur KİVUNİM Amerika-İsrail akademik təşkilatının Azərbaycanda səfərdə olmuş nümayəndə heyətinin üzvləri ilə görüşüb.**

Görüşdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, müavini Səyavuş Heydərov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münaqişələr üzrə ekspert Arye Qut, KİVUNİM Amerika-İsrail akademik təşkilatının nümayəndə heyətinin rəhbəri Cey Liberman, Bakı şəhəri Dağ yəhudiləri icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Mifodi Ata iştirak ediblər.

Ölkəmizdəki dini durum, Dövlət Komitəsinin fəaliyyət istiqaməti barədə görüş iştirakçılarına ətraflı məlumat verən M.Qurbanlı bildirib ki, tarixən tolerant və multikultural dəyərləri üstün tutan, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycanda bütün dinlərin nümayəndələri əsrlərdir sülh və qardaşlıq şəraitində yaşayırlar. Yəhudilərin Azərbaycanda məskunlaşmasının 2600 illik tarixi olduğunu deyən Komitə sədri ölkəmizdə hər zaman yəhudilərə xoş münasibət bəslənildiyini vurğulayıb.

Diskussiya şəraitində davam edən görüşün sonunda iştirakçılara Azərbaycandakı dini abidələrin fotoşəkillərindən ibarət kitab təqdim edilib.

* * *

**Dekabrın 9-da Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Robert Sekutanı qəbul edib.**

Azərbaycanda dövlət-din münasibətlərinin Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanunla tənzimləndiyini deyən M.Qurbanlı bildirib ki, bütün dini konfessiyalar qanun qarşısında bərabər hüquqlara malikdirlər.

Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir Azərbaycanın güclü tolerantlıq ənənələrinə malik olduğunu və hazırda narahat dünyada bunun böyük önəm daşıdığını bildirib.

Qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edildiyi görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov və şöbə müdirləri iştirak ediblər.

# Dövlət Komitəsinin sədri Biləsuvarda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin operativ həlli üçün konkret tədbirlər görürlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dekabrın 22-də Biləsuvardakı Heydər Əliyev Mərkəzində Biləsuvar, Salyan və Neftçala rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Qəbulda 16 vətəndaşın müraciətinə baxılıb. Müraciətlər əsasən dini icmaların dövlət qeydiyyatı, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini ədəbiyyatla təmin olunma və sair məsələlərlə bağlı olub.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Vətəndaşlar qəbul üçün yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "SalamNews"a müsahibəsi

# "Tolerantlıq xalqımızın gen yaddaşından gəlir və bu ənənə günümüzdə yüksək səviyyədə davam edir"



**- Mübariz müəllim, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasını aktuallaşdıran səbəblərdən biri də dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdir. Komitənin yarandığı 15 il ərzində bu istiqamətdə görülən işləri qənaətbəxş hesab edirsinizmi?**

- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yarandığı on beş il ərzində ölkədəki dini mühitin sağlamlaşdırılması, qanunazidd hərəkətlərin qarşısının alınması, dini icmaların qeydiyyatı, ölkə ərazisində nəşr edilən və xaricdən idxal edilən dini mahiyyətli ədəbiyyata nəzarət prosesinin həyata keçirilməsi, dindarlara vətənpərvərlik hisslərinin aşılanması, maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və bu kimi məsələlər ətrafında xeyli iş görüb. Bütün bunlar dövlətimizin dindarlara verdiyi böyük dəyərin bariz nümunəsidir. Bununla birlikdə qeyd etməyi zəruri hesab edirəm ki, hələ də aparılacaq işlər qalmaqdadır və Komitə müntəzəm olaraq bu sahədəki fəaliyyətini davam etdirəcək.

**- Konstitusiyamızda yazılıb: "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır". Cəmiyyətimizdə bəziləri bu maddəni guya anlamayıb sual edirlər: "Din (dindarlar) özünü dövlətdən ayırıb, yoxsa dövlət dindən ayrılıb"?**

- Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, eyni zamanda öz milli-mənəvi dəyərlərinə söykənən dövlətdir. Bu mənada dinin dövlətdən ayrı olmasına baxmayaraq, dindar dövlətdən ayrı deyil. Ölkənin bütün vətəndaşları kimi, dindarların da eyni hüquq və vəzifələri vardır. Hər hansı dinə mənsubiyyət heç kimi məsuliyyətdən azad etmir. Azərbaycan çoxmədəniyyətli, çoxkonfessiyalı, dünyəvi dövlətdir və o, dünyəviliyi kənardan hər hansı təsir olmadan seçib. Dinin dövlətdən ayrı olması dünyəviliyin təməl daşıdır və bu heç də dövlətin dini, dindarı diqqətdən kənarda saxlaması deyil. Əksinə, dövlət bütün dinlərə fəaliyyət göstərmələri, inkişaf etmələri üçün hər bir şəraiti yaradır. Bunun ən yaxşı nümunəsi isə Azərbaycandır. Ulu Öndərin əsasını qoyduğu dövlət-din münasibətləri modeli bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və elə bir səviyyəyə çatdırılıb ki, artıq bu model dünyada nümunə kimi qəbul olunur. Dövlətimiz ibadət yerlərinin tikintisinə dəstək verməklə bərabər, yüzlərlə ibadət ocaqları inşa və yaxud yenidən bərpa edib. Əgər Sovetlər İttifaqı dağılan dövrdə ölkəmizdə 17 məscid fəaliyyət göstərirdisə, bu gün dini ibadət evlərinin sayı 2000-dən çoxdur. Təkcə son on il ərzində ölkədə 140-a yaxın məscid inşa olunub, 80-dən çox məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Həmçinin, İslam dininin iki böyük bayramı olan Ramazan və Qurban bayramları dövlət tərəfindən rəsmi şəkildə qeyd edilir. Ölkə Prezidentinin dinə diqqət və qayğısı dindarlar tərəfindən böyük minnətdarlıqla qarşılanır, biz bunu istər paytaxtda, istərsə də regionlarda vətəndaşlarla görüşlərimizdə, tədbirlərimizdə əyani şəkildə görürük.

**- Azərbaycanda dini tolerantlığın bariz nümunəsi kimi səmavi dinlərin bir nəşri buraxılsa, yaxşı olmazmı? Yaxud Səmavi dinlərin əsasları orta məktəblərdə tədris edilsə, gənc nəsil daha tolerant böyüməzmi?**

- Tarixə nəzər salsaq görərik ki, Azərbaycanda heç zaman dini-etnik zəmində münaqişələr baş verməyib. Xalqımız bu ərazidə yaşayan digər dinlərin, mədəniyyətlərin nümayəndələrinə dilinə, dininə, milli mənsubiyyətinə görə ayrı-seçkilik qoymayıb. Aparılan tədqiqatlar da sübut edir ki, başqa bir mədəniyyətə mənsub ölkələrlə sərhəd olanlara nisbətən eyni mədəniyyətə aid qonşu ölkələrin vətəndaşları daha dözümlü olurlar. Bununla yanaşı, fərqli mədəniyyətə mənsub qonşu dövlətlərin vətəndaşları instinktiv olaraq öz milli-mənəvi dəyərlərinə daha sıx bağlanırlar. Eyni zamanda, xalqımızda dözümlülüyün formalaşmasında milli-mənəvi, o cümlədən İslami dəyərlər də böyük rol oynayıb. Məsələyə bu aspektdən yanaşsaq, tolerantlıq xalqımızın gen yaddaşından gəlir və bu ənənə günümüzdə yüksək səviyyədə davam edir. Amma dünyada baş verən neqativ hadisələr göstərir ki, sabitliyi və əmin-amanlığı qorumaq üçün bu ənənəni yaşatmaq, daha da inkişaf etdirmək labüddür. Bu baxımdan dövlətimiz tolerant və multikultural dəyərlərin qorunub-saxlanılması və inkişafı istiqamətində istər paytaxtda, istərsə də regionlarda çoxsaylı tədbirlər təşkil edir. Cəmiyyətin maariflənməsi məqsədi daşıyan bu cür tədbirlər əhalinin müxtəlif təbəqələrini, o cümlədən təhsil ocaqlarını da əhatə edir. Həmçinin Dövlət Komitəsi tərəfindən tolerant və multikultural dəyərlərimizin qorunması və inkişafı istiqamətində bir sıra nəşrlər işıq üzü görür. Buna misal olaraq, "Dövlət və Din" ictimai fikir toplusunu, "Cəmiyyət və Din" qəzetini, o cümlədən xeyli sayda çap olunmuş və gələcəkdə də çapı nəzərdə tutulan kitabları, broşürləri göstərə bilərik. Eyni zamanda, bu istiqamətdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun birgə nəşri olan "Multikulturalizm" jurnalı da çap olunur. Səmavi dinlərin əsaslarının orta məktəblərdə tədris edilməsi ilə bağlı qeyd edim ki, bu gün orta məktəblərdə "Həyat bilgisi" adlı fənn çərçivəsində şagirdlərə İslam, eləcə də digər dinlər barəsində ümumi məlumatlar verilir. Dövlət Komitəsi həmin fənnin proqramlarına dini bilgilərin daha da əhatəli daxil edilməsi ilə bağlı müvafiq qurumlarla əməkdaşlıq etməyə hazırdır.

**- "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim". (Maidə-3) Bir çox dindarlar Quranın bu ayəsini əsas tutaraq İslamı digər dinlərlə eyni müstəviyə qoyub dini tolerantlığı təbliğ etməyi Allahın buyurduqlarına zidd hesab edirlər. Onlara cavabınızda nə deyərdiniz?**

- Bəzi müsəlmanlar və islamofoblar İslam dinini tolerantlığa zidd hesab edirlər. Çox maraqlıdır ki, İslam dinini öz bayrağı kimi qəbul etdiyini deyənlər və İslama düşmən olduğunu bəyan edənlər bu məsələdə eyni mövqe sərgiləməkdədirlər. Bu da üzərində düşünülməsi vacib olan sualdır. Əlbəttə ki, belə bir fikir mövcuddur və radikalizmə meyil edən insanlar bunun dəstəkçisidir. Qeyd etmək lazımdır ki, İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimin ümumi kontekstinə və Məhəmməd peyğəmbərin (s) qeyri-müsəlmanlarla davranışına nəzər salsaq, bu fikrin yanlış olduğunu görərik. Qurani-Kərimdə buyurulur: "Sizin öz dininiz var, mənim də öz dinim!". Həm də Məhəmməd peyğəmbərin (s) və onun səhabələrinin qeyri-müsəlmanlarla ədalətli davrandıqlarını, onların hüquqlarını müdafiə etdiklərini deyə bilərik. Məsələn, bizə məlumdur ki, Məhəmməd peyğəmbərin (s) zamanında qeyri-müsəlmanlarla bağladığı müqavilələr, onlarla bərabər şəkildə mükalimələr təşkil etməsi, onların həyatına zərər vuracaq əməllərin qarşısının alınması, dini ibadətlərinin həyata keçirilməsinə maneə törədilməməsi kimi hərəkətlər İslam dinində başqa dinlərə göstərilən dözümlü münasibətin bariz nümunələrindəndir. Dini tolerantlıq fərqli dinlərə, düşüncələrə dözümlü münasibət göstərmək deməkdir. Məsələyə bu aspektdən baxsaq, deyə bilərik ki, İslam dini tolerantlığa nəinki düşmən deyil, hətta onun müdafiəçisi rolundadır. Bunun əksini iddia etmək isə radikal və İslam dininə qarşı, dolayı yolla da olsa, düşmən münasibət göstərilməsinə rəvac verən düşüncədir.

**- Ölkədə qeyri-ənənəvi dini icmaların təsir dairəsi hələ tamam daralmayıb. Necə olub ki, sözügedən qüvvələr Azərbaycanda özlərinə yer edə biliblər?**

- Ölkəmiz yetmiş il ərzində ateizmi özünün dövlət siyasəti elan edən SSRİ-nin tərkib hissəsi olmuşdur. Həmin illər ərzində xalqımızın çoxəsrlik dini ənənəsinə kifayət qədər böyük zərbə vurulmuş və sonrakı nəsillərdə dini bilgilərinin zəifləməsi, köklərindən ayrılması prosesi baş vermişdir. SSRİ dağıldıqdan sonra müstəqilliyimizin bərpasının ilk illərindən başlayaraq, xaricdən çoxsaylı dini emissarlar ölkəmizə axın etmişlər. Onlar əhalinin dini bilgilərinin çox az olmasından, həm də yaranan ağır iqtisadi-sosial böhrandan da istifadə edərək insanlar arasında təbliğat aparmış, onlara din adı altında öz maraqlarına cavab verən düşüncələri təlqin etməyə cəhd göstərmişlər. Qeyd etmək lazımdır ki, həmin dairələr bu məsələdə xalqımızın qonaqpərvərliyindən də sui-istifadə etmişlər. Belə ki, xaricdən gələnlərə həddindən artıq inam onların sərbəst şəkildə fəaliyyət aparmalarına şərait yaratmışdır. Lakin hələ 90-cı illərin sonlarından başlayaraq dövlətin din sahəsində siyasəti təşəkkül tapmağa başlamış və xalqımızın milli-mənəvi dəyərlərinə zidd olan cərəyanların fəaliyyətinin qarşısının alınmasına başlanmışdır. Sözügedən proseslər 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması ilə daha da sürətlənmiş və inkişaf etmişdir. Dini sahədə qanunvericilik aktlarına edilən dəyişikliklər, dini icmaların işlərinə nəzarətin artırılması kimi məsələlər misal kimi göstərilə bilər. Qeyd etmək lazımdır ki, ölkəmizdə dini sahədə problemlər ildən-ilə azalmaqdadır və ümumilikdə dövlətin apardığı siyasət öz bəhrəsini verməkdədir. Sözsüz ki, zərərli dini cərəyanların fəaliyyətinin qarşısını tam almaq mümkün olmamışdır. Lakin onların aktiv şəkildə təbliğat aparmaları üçün şərait artıq çox azdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi din adı altında milli və dövlət maraqlarımıza zidd, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınması üçün müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirir və keçirəcəkdir.

**- Belə bir deyim var ki, bir məktəbin və ya məscidin açılması bir həbsxananın qapadılması deməkdir. Modern məktəb və ya məscid varsa, amma gəncləri ora yönəldən yoxdursa, cəmiyyətdə sürətli və təsirli mənəvi inkişaf ola bilərmi? Niyə ölkəmizdə İslam dininin təbliği xristian Rusiya Federasiyasında olduğundan daha zəifdir?**

- Azərbaycan dünyəvi dövlət olduğu üçün ölkədə dövlət-din münasibətlərinin əsasını Konstitusiya və "Dini etiqad azadlığı haqqında" Qanun təşkil edir. Ona görə də dövlət tərəfindən vətəndaşlarımızın dini etiqad azadlığının təmin olunması və bu sahə ilə bağlı qanunvericilik aktlarının beynəlxalq hüquq normalarına uyğunlaşdırılması məqsədilə "Dini etiqad azadlığı haqqında" Qanuna bir neçə dəfə dəyişiklik edilib və hüquqi bazamız daha işlək, demokratik forma qazanıb. Qanunvericiliyə görə, dövlət üçün hansısa xüsusi imtiyazlı din, məzhəb, təriqət, yaxud dini qurum yoxdur. Ölkədə insan ləyaqətini alçaltmayan və yaxud insanpərvərlik prinsiplərinə zidd olmayan bütün dinlərə, məzhəblərə və cərəyanlara eyni münasibət bəslənilir. Azərbaycanda din dövlətdən ayrıdır, yəni nə dövlət dinə müdaxilə edir, nə də din dövlətin işinə. Bu baxımdan dini təbliğatın aparılması dövlətin işi deyil. Bu missiya Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən təyin olunan din xadimlərinin, ilahiyyatçıların və ziyalıların üzərinə düşür. Hesab edirəm ki, onlar da üzərlərinə düşən vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Eyni zamanda, dövlətimiz milli-mənəvi dəyərlərin qorunması və təbliği istiqamətində ardıcıl siyasət həyata keçirir. Prezident cənab İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncam bu baxımdan çox önəmlidir. Sərəncama əsasən, dini icmalara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Dövlət Komitəsinə 2,5 milyon manat vəsait ayrılıb və həmin vəsait mərhələli şəkildə dini icmalara paylanılır. Dini icmalar da onlara ayrılan bu vəsait vasitəsilə milli-mənəvi dəyərlərimizin qorunması, insanların radikal, o cümlədən zərərli dini cərəyanların təsiri altına düşməmələri istiqamətində çoxsaylı tədbirlər keçirirlər. Şübhəsiz ki, bu tədbirlər cəmiyyətin dini bilgilərinin artırılmasında, ənənəvi dininin təbliğatında, eyni zamanda xurafat və radi-

⇨ 5

# “Tolerantlıq xalqımızın gen yaddaşından gəlir və bu ənənə günümüzdə yüksək səviyyədə davam edir”

⇦4 kalizmlə mübarizədə öz müsbət təsirini göstərir.

**- İslamın hökmlərinə görə, dinlə bağlı fətvanı yalnız xüsusi dini rütbəsi olan səlahiyyət sahibləri, alimlər verə bilərlər. Ölkəmizdə o cür din alimi olmadığından möminlərimizin gözü zəruri vaxtlarda xaricə dikilir. Bu, normaldırmı?**

- Azərbaycan dövləti digər sahələrdə olduğu kimi, din sahəsində də yüksək ixtisaslı mütəxəssislərin yetişməsində maraqlıdır və bu istiqamətdə işlər görür. Bu mənada Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi və Bakı İslam Universitetinin ixtisaslı kadrların hazırlanmasında xüsusi rolu var. Həmin tədris müəssisələrində təhsilin səviyyəsinin yüksəldilməsinə, dini dərslərlə yanaşı, dünyəvi elmlərin də tədrisinə, əhatəli dərs vəsaitlərinin hazırlanmasına, tədrisin hər hansı məzhəbçilik deyil, ümumi saf dini prinsiplər əsasında təşkil olunmasına, xurafatçılığa yol verilməməsinə, vətənpərvərlik ruhunun aşılanmasına və s. amillərə böyük diqqət yetirilir. Hesab edirəm ki, dini təhsil sahəsində dövrün tələblərinə uyğun islahatların aparılması, təhsilin keyfiyyətinin artırılması ilə bağlı görülən tədbirlər savadlı milli kadrların hazırlanmasında və dövlət-din münasibətlərinin tənzimlənməsi işində müsbət nəticələr verəcəyinə şübhə yaratmır.

Bütün bunlarla yanaşı, “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, ölkə ərazisində fəaliyyət göstərən müsəlman dini icmaları təşkilati məsələlərdə Qafqaz Müsəlmanları İdarəsinə tabedirlər. Şəri məsələlərlə bağlı zərurət yarandıqda QMİ Qurani-kərimin tələb və müddəalarını, Məhəmməd peyğəmbərin (s) hədislərini əsas götürərək fətvalar verir. Eyni zamanda, ölkəmizdə QMİ tərəfindən seçilən yüksək dini təhsilli qazılar var. Bu baxımdan dindarlarımız şəriətlə bağlı məsələlərin həllində onlardan kömək istəyə bilərlər.

**- Mübariz müəllim, respublikada dünyəvi və dini təfəkkürlə yaşayan insanların birgəyaşayış qaydalarını tənzimləmək üçün hüquqi normativlərlə yanaşı, hansı milli-mənəvi normativlər əsas götürülür?**

- Xalqımızın çoxsaylı milli-mənəvi dəyərləri vardır. Bunların arasında çoxəsrlik multikulturalizm və tolerantlığı xüsusilə fərqləndirmək gərəklidir. Əsrlərdir fərqli din və mədəniyyətə sahib insanların Vətənimizdə rahat şəkildə yaşaması və fəaliyyət göstərməsi üçün heç bir təhlükə mənbəyi yaranmamışdır. Mürəkkəb coğrafi şəraitdə yerləşən ölkəmiz Avropa ilə Asiyanı, Şərqlə Qərbi bir-birinə birləşdirən körpü rolunu oynamaqdadır. Bu cəhətdən də son dərəcə mürəkkəb tarixi keçmişi olan ölkəmiz tarix boyu tolerant dəyərlərə sahib çıxmışdır. Xristianlığın yarandığı ilk dövrdən etibarən Xristianlıqla, İslamın ortaya çıxmasından qısa müddət sonra İslamla tanış olan xalqımız bütün fərqli din daşıyıcılarının azad şəkildə birgə yaşayıb-yaratmaları üçün zəruri olan şərtləri yerinə yetirmişdir. Bütün bunlar xalqımızın multikultural dəyərlərə sahib olmasından xəbər verir. Buna görədir ki, Azərbaycan bu gün dünya üçün multikulturalizm və tolerantlıq modelidir.

**- Ölkənin sağlam düşüncəli təbəqəsi müqəddəs yerlərə ziyarətlərin təşkilatlanmış formada həyata keçirilməsinin zəruriliyi ilə bağlı DQİDK-nın mövqeyini razılıqla qarşılayıb. Komitə dini qurumlarla iş sahəsində daha hansı islahatları nəzərdə tutub?**

- Şübhəsiz, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dövlət rəhbərliyi tərəfindən qarşısına qoyulmuş vəzifə və öhdəliklərin yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışır. Bu sahədə, ölkə ərazisindəki dini mühitin daha da sağlamlaşdırılması, dindarların heç bir problemlə üzləşmədən dini ibadətlərini rahat yerinə yetirməsi, qanunların icrasının təmini üçün bütün zəruri olan addımlar bundan sonra da atılacaqdır. Komitə paytaxtda və bölgələrdə əhali arasında dini maaarifləndirmə işini fasiləsiz həyata keçirir. Dini sahədə müşahidə edilən bütün problemlərin həlli üçün müvafiq tədbirlər görülür. Həmçinin, dindar kütləni yanılmağa, radikal təsirlərə məruz qoymağa cəhd edən bütün qüvvələrin qarşısı qətiyyətlə alınır.




# “Multikulturalizm ili: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilib

**Dekabrın 16-da Gənclər və İdman Nazirliyinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Multikulturalizm ili: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirilib.**

Tədbirdə dövlət qurumları, Milli Məclisin deputatları, tələbə gənclər təşkilatları, tələbələr və fəal gənclər iştirak ediblər.

Tədbirdə iştirak edən gənclər və idman naziri Azad Rəhimov bildirib ki, multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. “Gəncliyimiz Multikultural dəyərlərimizlə fəxr etməlidir” deyən nazir diqqətə çatdırıb ki, gələcək nəsillərin bu dəyərləri yaşatmalı və dünya gəncləri ilə bölüşməlidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycan gəncləri dini ekstremizmlə, terrorizmlə mübarizədə həmrəylik və mübarizlik nümayiş etdirməlidir. Komitə sədrinin sözlərinə görə, ölkəmizin gəncliyi azərbaycançılıq ideologiyasına, milli-mənəvi dəyərlərimizə, humanizm və sülhsevərlik prinsiplərinə sadiq olmalı, Azərbaycanda yaşayan bütün xalqların sarsılmaz birliyinə daim öz töhfəsini verməlidir: “Gənclərimiz vətəndaşlarımızın dini ehtiyaclarının təmin olunması üçün dövlətimizin yaratdığı şəraiti düzgün dəyərləndirməli, dini etiqad azadlığından yalnız respublikamızın inkişafı və xalqımızın rifahı naminə yararlanmalıdır. Əminəm ki, xalqımızın malik olduğu dəyərlərin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi indiki şəraitdə gənclərin əsas vəzifələrindən biri olacaqdır”.

Daha sonra tədbir iştirakçılarına qarşıdan gələn 2017-ci ilin dövlətçiliyimizin inkişafında, xalqımızın rifahının daha da yüksəldilməsində yeni nailiyyətlər ili olması arzulanıb.

# “Azərbaycan Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına böyük önəm verir”

Dekabrın 23-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Prezident İlham Əliyevin siyasəti: milli-mənəvi dəyərlərimizin qorunması və multikultural dəyərlər” mövzusunda konfrans keçirilib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov tədbirin məqsədlərindən, ölkəmizin multikultural dəyərlərindən, dini icmalara göstərilən dövlət qayğısının əhəmiyyətindən danışıb. Bildirilib ki, Prezident İlham Əliyevin bütün istiqamətlərdə olduğu kimi, dövlət-din sahəsində də həyata keçirdiyi siyasət əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin şaxələndirilmiş şəkildə davamıdır. O deyib ki, Prezident İlham Əliyevin dövlət-din, milli-mənəvi dəyərlərin




qorunması siyasətinin əsasını Azərbaycançılıq ideologiyası təşkil edir.

G.İsmayılov qeyd edib ki, dövlətimiz bütün dinlərə eyni münasibət sərgiləyir, tolerant və multikultural dəyərləri təşviq və təbliğ edir. Çünki multikultural dəyərlərə sahib olmayan cəmiyyətdə sabitliyin olması mümkün deyil. Vurğulanıb ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycanda və dünyada dini və tarixi abidələrin bərpası istiqamətində mühüm layihələr reallaşdırıb. G.İsmayılov DQİDK-nın təşkilatçılığı ilə “Multikulturalizm ili”ndə təşkil olunan konfranslar barədə də tədbir iştirakçılarına məlumat verib.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov isə çıxışında bildirib ki, ölkəmizdə mövcud olan yüksək multikultural, tolerant dəyərlər Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırır. Prezident İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasət nəticəsində Azərbaycan dünyada yüksək mədəniyyətə malik və tolerant dövlət kimi tanınır.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini hacı Fuad Nurulla bildirib ki, əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycanda digər dinlərə və mədəniyyətlərə dözümlü münasibət həyat tərzinə çevrilib. Ölkəmizdə müxtəlif millətlərin, dini konfessiyaların birgə yaşaması nadir nümunədir. Biz uzun illərdir birgə yaşayırıq. Bu bizim sərvətimiz və nemətimizdir. Müasir dövrdə də ölkəmizdə bu zəngin ənənə qorunub saxlanılaraq uğurla davam etdirilir.

# “ASAN xidmət”in bəyənilmə əmsalı 100 faizə yaxındır

*(əvvəli 1-ci səhifədə)*

Onlardan altısı bölgələrdə yerləşir. Gələn il Quba və Mingəçevir şəhərlərində iki yeni mərkəz açılacaq. Gələn il, eyni zamanda, digər iki şəhərimizdə - Şəkidə və İmişlidə növbəti mərkəzlərin tikintisi başlanacaq”.

Prezident İlham Əliyev vurğulayıb ki, “ASAN xidmət”də mövcud olan mədəniyyət, mədəni xidmət, qaydaqanun, nizam-intizam, şəffaflıq hər bir yerdə olmalıdır. Ona görə “ASAN xidmət” hər bir sahədə öz təsirini göstərməlidir və göstərir.




# ali təhsil ocaqlarında nümayiş etdirilib

## Azərbaycan Dövlət İqtisad Universitetində

Dekabrın 2-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə hazırlanan dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filmi Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) nümayiş olunub. Nümayişdən öncə UNEC-in



Yaradıcılıq Mərkəzinin direktoru Elman Cəfərov film barədə məlumat verib. Bildirib ki, filmdə dini radikalizmin qurbanı olan insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilən şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə açıqlanır. Azərbaycanda dinlər, məzhəblər arasında tarixən mövcud olan birlik və bərabərlik, xalqımızın tolerantlıq keyfiyyətləri, dövlətin bu sahədə həyata keçirdiyi siyasətin mahiyyəti qısa, lakin aydın şəkildə işıqlandırılır. E.Cəfərov filmin gənclərin dini radikal qrupların təsirindən qorunması istiqamətində mühüm rol oynayacağını vurğulayıb.

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetində

Dekabrın 5-də "Fitnə" sənədli filmi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində nümayiş etdirilib.

Filmin nümayişindən sonra ali məktəbin rektoru professor Mustafa Babanlı dini radikalizmə qarşı mübarizənin psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən bəhs edən "Fitnə" filminin radikalizmə qarşı mübarizədə böyük təsirə malik olduğunu bildirib. Filmin gənclərin maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi, ölkəmizdə mövcud tolerant mühitin qorunması və təbliği baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

DQİDK-nın sədri Mübariz Qurbanlı gənclərimizin radikal dini cərəyanların təsiri altına düşməməsi və bu istiqamətdə məlumatlandırılmasının təmin edilməsi üçün bu tipli maarifləndirici filmlərin çəkilməsinin və istiqamətləndirici tədbirlərin daha çox keçirilməsinin əhəmiyyətindən danışıb. O, ölkəmizdə dövlət və din münasibətlərinin tənzimlənməsi, dini icmalarla işin qanunauyğun təşkili, dini ibadət və mərasimlərin milli-mənəvi dəyərlərimizə və dövlətçilik prinsiplərinə uyğun keçirilməsi, qeyri-ənənəvi dini təriqətlərin zərərli təbliğatının qarşısının alınması sahəsində görülən tədbirlərə toxunub. Bildirilib ki, filmdə dini radikalizmin qurbanı olmuş insanların, eləcə də cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin timsalında bu problemin cəmiyyət və dövlətimiz üçün nə qədər təhlükəli olduğu dolğun şəkildə açıqlanır. Ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı üçün hər cür şəraitin yaradıldığını deyən Mübariz Qurbanlı Azərbaycanın tolerantlıq mərkəzi kimi tanındığını bildirib. Qeyd edib ki, Azərbaycanda dövlət-din münasibətlərinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub və bu gün bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında

Dekabrın 9-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında keçirilmiş nümayişdə DQİDK-nın, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rəhbərliyi və məsul şəxsləri, akademiyanın pedaqoji kollektivi və tələbələri iştirak ediblər.

Filmin nümayişindən sonra akademiyanın rektoru Fuad Hacıyev çıxış edərək, bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, dini radikalizmlə mübarizədə təhsil müəssisələrinin də üzərinə böyük məsuliyyət düşür. Rektor "Fitnə" filminə müxtəlif




qurumlarda, xüsusilə də ali təhsil ocaqlarında kütləvi baxışların keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib. Natiq "Fitnə" filminin nümayişinin gənclərin maarifləndirilməsində əhəmiyyətli olduğunu vurğulayıb. Bu filmin gənclərimizin milli-mənəvi dəyərlərimizə bağlılığının gücləndirilməsi və təbliği baxımından mühüm olduğunu qeyd edib.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, filmin əsas məqsədi radikalizmlə mübarizə, dini, psixoloji, hüquqi, siyasi və mənəvi təbliğatın aparılmasıdır. O, Azərbaycanda heç zaman dini və məzhəb ayrı-seçkiliyinin müşahidə olunmadığını diqqətə çatdırıb. Dövlətin dinə qayğısından danışan Mübariz Qurbanlı hazırda ölkəmizdə 2 mindən artıq məscidin fəaliyyət göstərdiyini bildirib. Xurafat və dini radikalizmin təhlükəli olduğunu bildirən Komitə sədri ölkəmizdə dini ekstremizm və radikalizmlə mübarizə tədbirlərindən danışıb.

Dövlət Komitəsinin sədri qeyd edib ki, hazırda dünyada İslam və digər dinlərdən başqa məqsədlər üçün istifadə edən radikal qüvvələr mövcuddur. Həmin radikal qüvvələr, xüsusilə gəncləri öz sıralarına cəlb etmək üçün çalışırlar. Bu cür təbliğatların qarşısının alınmasında maarifləndirmə tədbirlərinin keçirilməsi vacibdir. Mübariz Qurbanlı belə maarifləndirici sənədli filmlərin radikal qruplara qoşulanların sayının azalmasına təsir göstərdiyini bildirib.

## Qafqaz Universitetində

Dekabrın 19-da isə film Qafqaz Universitetində nümayiş etdirilib. DQİDK-nın sədri Mübariz Qurbanlının tələbələrlə görüşündə ölkəmizdə dövlət-din münasibətlərindən, dini radikalizm və onun törətdiyi fəsadlardan söz açılıb.

Əvvəlcə tələbələr "Fitnə" filmini izləyiblər. Sonra çıxış edən universitetin rektoru, professor Havar




Məmmədov Azərbaycanın tolerant ölkə olduğunu bildirib, filmin gənclərin din pərdəsi altında aparılan çirkin siyasətə qarşı maarifləndirilməsində xüsusi rol oynadığını vurğulayıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, tarixən din amilindən siyasi məqsədlər üçün istifadə olunub. Bu gün də dünyada İslam dininin yayılmasının və İslam ölkələrinin inkişafının qarşısının alınması üçün dini radikalizmdən istifadə edilir. İslam dini əslində günahsız insanların öldürülməsinə, savadsızlığa qarşıdır.

Dövlət-din münasibətlərindən danışan Komitə sədri vurğulayıb ki, dini radikalizm və xurafatla mübarizə aparmaq üçün gənclərimizin elmli olmaları da vacib şərtlərdəndir.

# İmişlidə "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" adlı seminar-müşavirə keçirilib

Dekabrın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və İmişli Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə İmişli şəhər Heydər Əliyev Mərkəzində "Dini radikalizmlə mübarizədə dini icmaların fəaliyyətinin təşkili" mövzusunda seminar-müşavirə keçirilib. Tədbir Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri qoyularaq xatirəsinin yad edilməsi ilə başlanıb.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, İmişli RİH başçısı Vilyam Hacıyev, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, İmişli şəhər Cümə məscidi dini icmasının sədri və axundu Adıgözəl Bəşirov, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin müdiri Cavanşir Bəhrəmov və şöbənin əməkdaşları, dini icma sədrləri, din xadimləri, ziyalılar iştirak ediblər.

Tədbir DQİDK-nın sifarişi ilə çəkilmiş "Fitnə" filminin nümayişi ilə başlanıb. Tədbirin ikinci hissəsini giriş



sözü ilə açan İmişli RİH başçısı Vilyam Hacıyev ölkəmizdə dini müstəvidə sabitlik və əmin-amanlığın bundan sonra da dövlətimiz üçün siyasi baxımdan prioritet məsələ olduğunu vurğulayıb. O, cəmiyyətimizin, xüsusilə gənclərin radikal təsirlərdən qorunmasında vətəndaşlarımızın üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

Tədbirdə çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra xalqımızın milli-mənəvi dəyərlərinə qayıdışının sürətləndiyini qeyd edib. O bu istiqamətdə Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayaraq, milli-mənəvi dəyərlərimizin inkişafı, dini radikalizm və ekstremizmin fəsadları ilə mübarizə metodları istiqamətində həyata keçirdiyi işlərdən danışıb.

Sonda tədbir iştirakçılarına Komitə tərəfindən çapına icazə verilmiş dini ədəbiyyatlar paylanılıb.

# Bakıda "Dinlərarası tolerantlıq və mətbuatın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib

Dekabrın 15-də ADA Universitetində "Dinlərarası tolerantlıq və mətbuatın rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfrans Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi, ADA Universitetində Avropa İttifaqının Qabaqcıl Təcrübəsinin Dəstəyi Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) və Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə təşkil edilib.

Rəsmi şəxslərin, diplomatik korpusun nümayəndələrinin, jurnalistlərin, beynəlxalq ekspertlərin, tələbələrin iştirak etdikləri konfransda dinlərarası tolerantlıq və medianın bu sahədə oynadığı rol barədə çıxışlar dinlənilib, müzakirələr aparılıb.

Tədbirdə çıxış edən Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Malena Mard əvvəlcə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrdən danışıb. O, 2016-cı ilin bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini söyləyib. Qeyd edib ki, məhz bu il Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni hüquqi müstəvidə qurulması qərara alınıb. Səfir gələn ilin əvvəlindən bu istiqamətdə danışıqlara başlanılmasına ümid etdiyini bildirib.

Malena Mard deyib ki, bu il Avropa İttifaqı ilə Azərbaycan arasında dörd alt komitədən üçü üzrə iclaslar keçirilib. O qeyd edib ki, Avropa İttifaqı Azərbaycanla səmərəli idarəçilik, iqtisadiyyat, enerji və digər məsələlərin müzakirəsinə böyük önəm verir.

Nümayəndəliyin rəhbəri vurğulayıb ki, 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib və bu gün keçirilən konfransın mövzusu da bununla bağlıdır. Tədbirdə dini nifrətin, ekstremizmin qarşısının alınması kimi mövzularla bağlı fikir mübadiləsi aparılır. Bu problemlərin həllinin tapılmasında açıq müzakirələr mühüm əhəmiyyət kəsb edir. Mövzu ətrafında ekspertlərin, media nümayəndələrinin fikir bildirməsi önəmlidir.

Azərbaycanın tarixən Avropa və Asiya arasında körpü rolunu oynadığını deyən DQİDK sədrinin birinci müavini S.Salahlı bildirib ki, ticari və siyasi münasibətlər çərçivəsində müxtəlif millətlərin nümayəndələri ölkəmizə gəlib. Azərbaycan da digər millətlərdən ən yaxşı keyfiyyətləri öyrənib və öz keyfiyyətlərini onlara verib. Onun sözlərinə görə, bunun sayəsində Azərbaycan xalqı sevgi, dostluq, hörmət kimi keyfiyyətləri inkişaf etdirməyi bacarıb: "Bütün bunlar Qurandan qaynaqlanır və bu, Azərbaycan xalqının mentalitetindədir. Azərbaycanda yaşayan xalqlar arasında həmişə qarşılıqlı anlaşma olub. Azərbaycan xalqı heç vaxt onunla birgə yaşayan xalqlara qarşı aqressiv və ya mənfi düşüncəli olmayıb".




Komitə sədrinin birinci müavini onu da əlavə edib ki, Azərbaycanda yaşayan digər millətlərin, dini və etnik qrupların nümayəndələri dinc, sərbəst və maneəsiz şəkildə öz ənənələrini qoruyub saxlayırlar.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov da qeyd edib ki, Azərbaycan tolerant ölkədir, müxtəlif millətlər, o cümlədən yəhudilər, xristianlar, hətta ermənilər heç bir problem olmadan burada rahat şəkildə yaşayırlar. Bu sahədə Azərbaycanın təkmil qanunvericiliyi var. Paytaxtın mərkəzində erməni kilsəsi olduğu kimi qalır. Ə.Amaşov Azərbaycan tolerantlığının, multikulturalizminin təbliğində mətbuatın rolundan danışıb.

Beynəlxalq konfrans işini panel iclaslarla davam etdirib.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev konfransın "Media və tolerantlıq" adlı panelində çıxış edərək dünyada baş verən qlobal problemlərdən danışıb. O, Azərbaycanın ötən əsrin 80-ci illərinin sonları və 90-cı illərinin əvvəllərində yaşadığı problemlərdən bəhs edərək ölkəmizdə qaçqınların və məcburi köçkünlərin olduğunu diqqətə çatdırıb. U.Mirzəyev həmin vaxtların Azərbaycanın tarixində ən ağrılı vaxtlar olduğunu qeyd edib.

BAMF-ın sədri bu gün dünyada miqrant, qaçqın probleminin artmasının narahatlıq doğurduğunu vurğulayıb. "1993-cü ildə Bolqarıstanda 273 miqrant olub, amma bu gün 78 mindən çoxdur. Bu rəqəm təxminən 285 dəfə artıb. Əslində dünyanın qlobal problemi sayılan bu məsələ yaşanılan faciəni göstərir. Bu rəqəmin fərqinə varsaq, həqiqətən də nə qədər böyük faciənin yaşandığını görə bilərik. Dünyada baş verən bu kimi problemlər, yaşanılan fəlakətlər hər bir insanı düşündürməlidir. Dünya birliyi bu kimi problemlərin həlli üçün ciddi səy göstərməlidir", - deyə BAMF-ın sədri bildirib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov da çıxış edərək bildirib ki, Azərbaycan bütün dünyada tolerantlıq örnəyi kimi tanınır. Ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirilən bütün tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Multikulturalizm və tolerantlıq ideyalarının təbliğində medianın üzərinə böyük vəzifələr düşür.

Beynəlxalq konfrans müzakirələrlə davam edib.

## Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim olunub

Dekabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Azərbaycanda dövlət-din münasibətləri qanunla tənzimlənir və mövcud qanunvericilik dövlət-din münasibətlərini yüksək səviyyədə nizamlayır. Azərbaycanda müxtəlif din mənsublarının birgəyaşayışının nümunəvi xarakter daşıdığını vurğulayan S.Salahlı ölkəmizin dözümlülük mədəniyyətinin formalaşdığı ərazi və tolerantlığın beşiyi olduğunu diqqətə çatdırıb.

Yeni qeydiyyatdan keçmiş dini icma sədrlərinə tövsiyələrini verən Səyyad Salahlı onların yerlərdə müvafiq dövlət qurumlarının nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq və fəaliyyətinin zəruriliyini vurğulayıb.

Eyni zamanda, Komitə sədrinin birinci müavini dini icma sədrlərinə dini maarifləndirmə tədbirlərində, qeyri-ənənəvi dinlərə qarşı mübarizədə daha fəal iştirak etmələrini tövsiyə edib.

Dini icma sədrləri çıxış edərək dindarlar üçün yaradılmış hüquqi-mənəvi şəraitə, mövcud ictimai-siyasi sabitliyə görə Azərbaycan dövlətinə və Prezident İlham Əliyevə səmimi minnətdarlıqlarını bildiriblər.

Sonda yeni qeydiyyatdan keçmiş dini icma sədrlərinə qeydiyyat şəhadətnamələri təqdim edilib.

## Gündüz İsmayılov: "Dünya birliyi kimin təcavüzə məruz qaldığını çox gözəl bilir"



"Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi olaraq işğal altında qalan və təcavüzə məruz qalmış, erməni vandalizminin qurbanı olmuş tarixi dini abidələrimizlə bağlı məsələni daim diqqət mərkəzində saxlayırıq". Bunu SİA-ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov deyib.

Sədr müavininin sözlərinə görə, indiyədək həm ölkə daxilində, həm də beynəlxalq təşkilatlar səviyyəsində xarici ölkələrdə işğal olunmuş tarixi dini abidələrimizin dağıdılması ilə bağlı müxtəlif səviyyələrdə tədbirlər təşkil edilib, konfranslar keçirilib: "Bununla belə, işğal altında qalmış tarixi dini abidələrimizlə bağlı fotoalbomlar hazırlanıb. Həmin fotoalbomlarda həm işğaldan öncəki, həm də işğaldan sonrakı vəziyyətin şəkilləri əks olunub. Onlarla bağlı tarixi məlumatlar əks edilib. Həmin materiallar istər Avropada, Amerikada, istərsə də müsəlman ölkələrində yayılıb. Bundan əlavə, DQİDK işğal altında qalmış tarixi dini abidələrimizin fotolarından ibarət sərgilər təşkil edib.

İndiyə qədər belə sərgilər Avropada, UNESCO-nun Mənzil Qərargahında, Brüsseldə, Moskvada, Nyu-Yorkda, eyni zamanda Təbrizdə, İslamabadda, Mərakeşdə nümayiş olunub. Hətta biz ərəb, fars, ingilis, rus dillərində, eyni zamanda Azərbaycan dilində müxtəlif broşuralar, kitablar, fotoalbomlar hazırlayıb paylamışıq. Eləcə də müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində bu məsələni qaldırmaq istəmişik və qaldırmışıq da. Bununla belə beynəlxalq təşkilatlara müraciətimiz olub. Sonuncu dəfə belə müraciətimiz aprel hadisələri ərəfəsində oldu. Bildiyiniz kimi, aprel hadisələri zamanı cəbhə xəttinə yaxın ərazilərdə yerləşən bir neçə məscidimiz ziyan çəkdi. Həmin məscidlər, eyni zamanda işğal altında qalan digər məscidlərimizlə də bağlı beynəlxalq təşkilatlara, BMT-yə, UNESCO-ya müraciətlər ünvanladıq.

G.İsmayılov əlavə edib ki, dünyada bir ayrı-seçkilik var: "Təəssüf ki, onlar həqiqətləri bilsələr də, reallıqlara göz yummaq istəyirlər və buna çalışırlar. Heç şübhəsiz ki, bu ayrı-seçkilikdən ən çox əziyyət çəkənlərdən biri də Azərbaycandır. Əslində, dünya ictimaiyyəti, dünya birliyi kimin təcavüzə məruz qaldığını çox gözəl bilir. Sadəcə olaraq bəzi beynəlxalq təşkilatlar, ekspertlər bu məsələni görməməzlikdən gəlirlər".

# DQİDK-nın hüquq-mühafizə orqanları ilə birgə keçirdiyi reydlər davam edir

Dekabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Daxili İşlər Nazirliyi (DİN) və digər hüquq-mühafizə orqanları ilə birgə paytaxtın Səbail və Nəsimi rayonları ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın, habelə mal və məmulatların satışı ilə məşğul olan 5 mağazada reyd keçirib. Monitorinqin keçirilməsində məqsəd dini təyinatlı ədəbiyyatların və məmulatların




satışı ilə məşğul olan məntəqələrin fəaliyyətinin, həmin ədəbiyyatların istehsal və satışı, eləcə də onların nəzarət markası ilə bağlı qanunvericiliyin tələblərinə riayət olunub-olunmamasının müəyyənləşdirilməsindən ibarət olub.

Baxış keçirilən mağazaların hər birinin ixtisaslaşdırılmış satış məntəqəsi olmadan dini təyinatlı ədəbiyyat, mal və məmulatların satışı ilə məşğul olduğu aşkarlanıb. Bununla yanaşı, reyd zamanı ümumilikdə içərisində müvafiq razılığın olmadığı, nəzarət markası ilə markalanmamış 433 dini təyinatlı ədəbiyyat müəyyən edilərək hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

Qeydə alınmış qanun pozuntuları hüquq-mühafizə orqanları tərəfindən müvafiq qaydada sənədləşdirilib. Aşkar edilmiş qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar davam etdirilir.

* * *

Dekabrın 8-də DQİDK, DİN, Dövlət Təhlükəsizliyi Xidməti (DTX), eləcə də Səbail Rayon İcra Hakimiyyəti tərəfindən dini qurumların fəaliyyət qaydasının pozulması haqqında daxil olan məlumatın yoxlanılması məqsədilə Səbail rayonu, Badamdar qəsəbəsi, Neftçilər küçəsi 3 ünvanında yerləşən Badamdar qəsəbə dini icmasına baxış keçirilib.

Baxış zamanı "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinin pozulduğu aşkar edilib. Adıçəkilən ünvandan DQİDK-nın müvafiq razılığının olmadığı 59 ədəd dini təyinatlı ədəbiyyat,19 ədəd video-kaset, 27 ədəd DVD və 80 ədəd CD aşkar edilərək götürülüb. İcmada özündə xurafat elementləri ehtiva edən əşyalar da aşkarlanıb.



Hüquq-mühafizə orqanları tərəfindən qanunvericiliyin tələblərinə uyğun araşdırmalara başlanılıb.

* * *

Dekabrın 9-da DQİDK DİN və Dövlət Təhlükəsizliyi Xidməti ilə birgə müvafiq razılığı olmayan, habelə dini nifrət və ayrı-seçkilik ehtiva edən dini təyinatlı ədəbiyyatların mövcudluğu haqqında daxil olan məlumatın yoxlanılması məqsədilə Qaradağ rayonu ərazisində yerləşən daha iki ünvana baxış keçirib.

Baxış zamanı "Qobu yolu" adlanan ərazidə ferma köşkündən 40 adda dini təyinatlı ədəbiyyat, digər ünvandan isə 13 adda dini təyinatlı ədəbiyyat və 13 ədəd DVD disk aşkar edilərək götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən qanunvericiliyin tələblərinə uyğun araşdırmalara başlanılıb.

# Tbilisidə qafqazşünas alimlərin IV beynəlxalq konqresi keçirilib

**Gürcüstanın paytaxtındakı İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində (TDU) qafqazşünas alimlərin IV Beynəlxalq konqresi keçirilib.**



Qafqazın tarixinə, Qafqazda əlifbanın yaranmasına və yazılı tarixi abidələrə həsr olunan tədbirdə Azərbaycanı Bakı Dövlət Universitetinin professoru, Alban-Udin xristian icmasının rəhbəri Robert Mobili təmsil edib.

TDU-nun rektoru Qiorqi Şarvaşidze Qafqazda yazılı tarixi abidələrin, əlifbanın tarixinin öyrənilməsində və bu barədə məlumatların gələcək nəsillərə çatdırılmasında qafqazşünas alimlərin rolunu, eləcə də belə tədbirlərin əhəmiyyətini xüsusi qeyd edib.

Universitetin professoru Çira Baramidze Qafqazda əlifbaların yaranma tarixi barədə danışıb, yazılı abidələrin və digər mədəni abidələrin qorunmasının vacibliyini vurğulayıb.

Gürcüstan parlamentində çoxluq fraksiyasının rəhbəri Zviad Kvaçantiradze, Robert Mobili, Rusiya, Dağıstan və Mahaçqala universitetlərinin və digər ali məktəblərin alimləri çıxış edərək tədbirin əhəmiyyətindən danışıb, münaqişələrin və dağıdıcı müharibələrin tarixi abidələrin məhvinə səbəb olduğunu söyləyiblər. Bildirilib ki, Qafqazın inkişafı birbaşa əlifba və yazılı tarixi abidələrlə əlaqəlidir.

Konfransda çıxış edənlər dünyada və Qafqazda mövcud olan əlifbalarla qədim əlifbalar arasında paralellər aparıb, sivilizasiyaların inkişafında əlifbanın rolu, yazılı abidələrin, yazı nümunələrinin oxşar və fərqli cəhətləri barədə ətraflı məlumat veriblər.

R.Mobili jurnalistlərə müsahibəsində bildirib ki, bu konqres tarixi, mədəni abidələrimizin qorunması, bərpası və gələcək nəsillərə çatdırılması baxımından çox böyük əhəmiyyətə malikdir. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilib. Alban-Udin mədəniyyəti də multikulturalizmin bir hissəsidir. Azərbaycanın Qəbələ rayonundakı Nic qəsəbəsində Alban kilsəsinin qalması, udinlərin öz dinlərini və mədəniyyətlərini qoruyub saxlamaları ölkədəki tolerantlığın, multikulturalizmin parlaq nümunəsidir.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin humanitar və mədəniyyət məsələləri üzrə attaşesi Samirə Ağayeva, eləcə də digər diplomatlar, Rusiya, Gürcüstan və başqa ölkələrin elm xadimləri, qafqazşünas alimləri iştirak ediblər.

# UNESCO-da "Müasir cəmiyyətlərdə multikulturalizmin rolu: uğurlu Azərbaycan modeli" mövzusunda konfrans keçirilib

**Parisdə UNESCO-nun baş qərargahında Azərbaycanın bu qurumdakı daimi nümayəndəliyinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkilatçılığı ilə "Müasir cəmiyyətlərdə multikulturalizmin rolu: uğurlu Azərbaycan modeli" sərlövhəli konfrans keçirilib.**



Azərbaycanın UNESCO-dakı daimi nümayəndəliyinin rəhbəri Anar Kərimov Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edildiyini diqqətə çatdırıb. O, bunun Azərbaycanın multikulturalizmə, mədəniyyətlərarası dialoqa verdiyi önəmin təzahürü olduğunu bildirib. Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi çətinliklərdən söz açan A.Kərimov Ermənistanın torpaqlarımızı işğal etdiyini, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti apardığını, bir milyon soydaşımızın doğma yurdundan didərgin salındığını söyləyib. Vurğulanıb ki, bütün bunlara baxmayaraq, Azərbaycan dialoqa, sülh danışıqlarına üstünlük verir. Tolerantlıq, multikulturalizm məkanı olan Azərbaycan "mədəniyyətlərin yaxınlaşmasında" fəal rol oynayır.

A.Kərimov iştirakçılara Bakının ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, "Bakı prosesi" haqqında məlumat verib. O, multikulturalizmin ölkəmizin dövlət siyasəti olduğunu deyərək konfransın multikulturalizmin Azərbaycan modelinə həsr edildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan multikulturalizm təcrübəsini digər ölkələrlə bölüşməyə hazırdır.

UNESCO-nun sosial və humanitar elmlər şöbəsinin rəhbəri Ann-Belinda Preis bu təşkilatın mədəniyyətlərarası dialoq üzrə ixtisaslaşmış proqramı, bu istiqamətdə həyata keçirilən fəaliyyətlər barədə danışıb.

"İsrail-Azərbaycan" (Azİz) Beynəlxalq Assosiasiyasının idarə heyətinin üzvü Arye Qut ölkəmizin tarixi, mədəniyyəti haqqında məlumat verib. O, Azərbaycanda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin, etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində bir ailə kimi yaşadıqlarını vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) müşaviri Aytən Qəhrəman multikulturalizmin Azərbaycanda dövlət siyasəti olduğunu və BBMM-in yaradılmasının Prezident İlham Əliyevin bu siyasətə verdiyi önəmin göstəricisi olduğunu bildirib. O, Mərkəzin yarandığı gündən gördüyü işlər haqqında konfrans iştirakçılarına ətraflı məlumat verib.

# Bölgələrdə maarifləndirmə tədbirləri uğurla davam etdirilir

***Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncamdan irəli gələrək bölgələrdə növbəti tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:***

**2 dekabr** – Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Ənənəvi dindarlıq və radikalizm" mövzusunda; Zərdab rayonu




Allahqulubağı kənd məscidi dini icmasının "Dini radikalizm və onun cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində "Dini ekstremizm və onun fəsadları" mövzusunda;

**6 dekabr** – Zərdab rayonu Allahqulubağı kənd məscidi dini icmasının "Dini radikalizm və onun cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində "İslamda mötədillik" mövzusunda;

**7 dekabr** – Şəki şəhəri Mərkəzi Cümə məscidi dini icmasının "Dini radikalizmlə mübarizə hər birimizin borcudur" layihəsi çərçivəsində Şəki şəhər Nizami Gəncəvi adına 7 saylı tam orta mətəbdə "İslam sülh dinidir" mövzusunda;

**8 dekabr** – Qobustan şəhəri Heydər məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Dini radikalizmin qarşısının alınmasında ənənəvi İslam dəyərlərinin rolu" mövzusunda; Qazax rayonu Çaylı kəndi Səxavət məscidi dini icmasının "Məhzəblərarası dialoqda multikulturalizm dəyərlərindən istifadə edilməsi" layihəsi çərçivəsində Çaylı kənd 1 saylı məktəbində "Müxtəlif məzhəblər arasında ayrı-seçkiliyin qarşısının alınmasının yollarının izah olunması" mövzusunda; Sabunçu rayonu Bakıxanov qəsəbəsi "İmam Rza" məscidi dini icmasının "Dini ekstremizm: onun səbəbləri və aradan qaldırılması üsulları" layihəsi çərçivəsində;

**9 dekabr** – Qazax rayonu Çaylı kəndi Səxavət məscidi dini icmasının "Məhzəblərarası dialoqda multikulturalizm dəyərlərindən istifadə edilməsi" layihəsi çərçivəsində Çaylı kənd 2 saylı məktəbdə "Tolerantlıq anlayışı və onun əsas ünsürləri" mövzusunda; Balakən rayonu İtitala kənd dini icmasının "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsi çərçivəsində rayonun Mollaçı kənd məscidində "Dini radikalizm milli dəyərlərimizə qarşı yönəlmişdir" mövzusunda; Yardımlı rayonunun Çayüzü kənd məscidi dini icmasının "Gənclərimizin radikal dini cərəyanlardan qorunması" layihəsi çərçivəsində "Ənənəvi dindarlıq və radikalizm" mövzusunda; Şamaxı rayonu Adnalı kənd məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Radikal fikirlərin təbliğinə qarşı vəhdət prinsipinin əhəmiyyəti" mövzusunda;

**10 dekabr** – Quba rayon Zizik kənd məscidi dini icmasının "Ənənəvi İslam və multikultural dəyərlərin təbliği" layihəsi çərçivəsində Zizik kənd məscidində "Dini radikalizmin qarşısının alınmasında ənənəvi islami dəyərlərin rolu" mövzusunda;

**13 dekabr** – Bərdə şəhər İmamzadə məscidi dini icmasının "Tolerantlıq ənənələrinin qorunub saxlanılması" layihəsi çərçivəsində "Dini radikalizm və onun fəsadları" mövzusunda; Şəki şəhəri Mərkəzi Cümə məscidi dini icmasının "Dini radikalizmlə mübarizə hər birimizin borcudur" layihəsi çərçivəsində rayonun Şorsu kənd tam orta məktəbində "Nümunəvi dindar necə olmalıdır?" mövzusunda; Sabunçu rayonu Nardaran



qəsəbəsi Rəhimə xanım ziyarətgahı məscidi dini icmasının "Dini radikalizm cəmiyyətdə təhlükə mənbəyi kimi" layihəsi çərçivəsində;

**14 dekabr** – Qobustan şəhəri Heydər məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və müasirlik" mövzusunda; Zərdab rayonu Allahqulubağı kənd məscidi dini icmasının "Dini radikalizm və onun cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində "Dini radikalizmin qarşısının alınmasında ənənəvi İslam dəyərlərinin rolu" mövzusunda;

**16 dekabr** – Yasamal rayonu Qasımbəy Cümə məscidi dini icmasının "Dini radikalizm və ekstremizmlə mübarizə" layihəsi çərçivəsində;

**17 dekabr** – Zaqatala rayonu Yuxarı Tala kənd (2) məscidi dini icmasının "Müasir dünya və ənənəvi milli-dini dəyərlər" layihəsi çərçivəsində Yuxarı Tala kənd məscidində; Müşfiqabad qəsəbə məscidi dini icmasının "Dini ekstremizm və məzhəblərarası vəhdət" layihəsi çərçivəsində;



**19 dekabr** – Yardımlı rayonu Çayüzü kənd məscidi dini icmasının "Gənclərimizin radikal dini cərəyanlardan qorunması" layihə çərçivəsində "Gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılmasında ağsaqqalların və ziyalıların rolu" mövzusunda; Abşeron rayonu Saray qəsəbəsi Cümə məscidi (1) dini icmasının "Milli-mənəvi dəyərlərimizin təbliği və dini radikalizmlə mübarizə" layihəsi çərçivəsində;

**20 dekabr** – Astara şəhər Qum məscidi dini icmasının "Milli-mənəvi



dəyərlərimizin təbliği dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində; Qobustan şəhəri Heydər məscidi dini icmasının "Gənclərin radikal təsirlərdən qorunması" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Şəki rayonu Cunud kənd məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə ənənəvi İslam dəyərlərinin öyrənilməsi və təbliği" layihəsi çərçivəsində "Dini radikalizm milli dəyərlərimizə qarşı yönəlmişdir" mövzusunda;

**21 dekabr** – Şəki rayonu Cunud kənd məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə ənənəvi İslam dəyərlərinin öyrənilməsi və təbliği" layihəsi çərçivəsində rayonun Aşağı Layısqı kənd orta məktəbində "Ənənəvi İslamda orta yol" mövzusunda; Qax şəhər məscidi dini icmasının "İslamda birgəyaşayış ənənəsi" layihəsi çərçivəsində "Müasir dünyada birgəyaşayış ənənələrinin yeri və rolu" mövzusunda;

**22 dekabr** – Şəki şəhər Mərkəzi Cümə məscidi dini icmasının "Dini radikalizmlə mübarizə hər birimizin borcudur" layihəsi çərçivəsində "Dini radikalizmlə mübarizədə ənənəvi dindarlığın rolu" mövzusunda;

**23 dekabr** – Saatlı rayonu Varxankənd Cümə məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "İslam sülh və həmrəylik dinidir" mövzusunda; Zaqatala rayonu Yuxarı Tala kənd (2) məscidi dini icmasının "Müasir dünya və ənənəvi milli-dini dəyərlər" layihəsi çərçivəsində Yuxarı Tala kənd (2) məscidində "İctimai əxlaq və dinimiz" mövzusunda; İtitala kənd dini icmasının "Milli dəyərlərimizin formalaşmasında İslam dininin əhəmiyyəti" layihəsi çərçivəsində Balakən rayonunun Beçəğar kənd məscidində "İslam birlik dinidir" mövzusunda; Zərdab rayonu Allahqulubağı kənd məscidi dini icmasının "Dini radikalizm və onun cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində "Multikultural cəmiyyətdə birgəyaşayışı şərtləndirən əsas amillər" mövzusunda;

**26 dekabr** – Yardımlı rayonu Çayüzü kənd məscidi dini icmasının "Gənclərimizin radikal dini cərəyanlardan qorunması" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Tərtər şəhər "Cümə" məscidi dini icması Heydər Əliyev Mərkəzində "Dini ekstremizm və radikalizmin cəmiyyət üçün təhlükələri" adlı layihə çərçivəsində;

**27 dekabr** – Şəki şəhər mərkəzi "Cümə" məscidi dini icmasının "Dini radikalizmlə mübarizə hər birimizin borcudur" layihəsi çərçivəsində "Şəhidlik zirvəsi" mövzusunda;

**28 dekabr** – Masallı rayonu Çaxırlı kənd məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərin rolu" layihəsi çərçivəsində "Ənənəvi dindarlıq və radikalizm" mövzusunda təşkil olunub.

# Bölgə xəbərlərimiz

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) paytaxt Bakıda və bölgələrdə dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, multikultural və tolerant ənənələrimizin təşviqi məqsədilə tədbirlər həyata keçirir. Bölgələrin spesifik xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunan tədbirlərdə müxtəlif din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik, qarşıdurma, zorakılıq hallarına yol verilməməsi, habelə dini icmaların fəaliyyətində tolerantlığın gücləndirilməsi, cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması məqsədilə maarifləndirici mövzularda çıxışlar olur. Səmərəli diskussiyaların aparıldığı tədbirlərdə respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Belə tədbirlər həm DQİDK-nın təşkilatçılığı, həm də Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq həyata keçirilir. Cari ay ərzində bu qəbildən olan tədbirlər:***





**1 dekabr** – Lerik Rayon İcra Hakimiyyətinin (RİH), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Lerik rayonu Çayrud kənd tam orta məktəbində; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Gənclər Evində "Dini radikalizm və onun fəsadları" mövzusunda;

**2 dekabr** – İmişli RİH, DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli rayon Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) birgə təşkilatçılığı ilə "Beynəlxalq terrorizm və dini radikalizmə qarşı mübarizə sahəsində qarşıda duran vəzifələr" mövzusunda;

**5 dekabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə Abşeron rayonu Masazır kənd 3 saylı tam orta məktəbində "Fitnə" sənədli filminin nümayişi;

**6 dekabr** – DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və DTX-nın Şəki şöbəsinin təşəbbüsü ilə Şəki Texnologiya Kollecində "Dini ekstremizm və terrorizmlə mübarizə" mövzusunda;

**9 dekabr** – DQİDK, Gənclər və İdman Nazirliyi və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlər və müasirlik"; DQİDK və Göygöl RİH-in birgə təşkilatçılığı ilə "Dünyəvi dövlətdə din: Azərbaycan modeli"; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Gənclər Evində "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzularında;

**13 dekabr** – Gənclər və İdman Nazirliyi və DQİDK-nın birgə təşkilatçılığı ilə Azərbaycan Dillər Universitetində "Milli-mənəvi dəyərlər və müasirlik" mövzusunda;

**14 dekabr** – DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin təşkilatçılığı ilə Yasamal rayonu 53 saylı orta məktəbdə "Tolerantlıq Azərbaycanda həyat tərzidir"; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan RİH və DTX-nın Şamaxı regional şöbəsinin birgə təşkilatçılığı ilə Qobustan Rayon Mərkəzi Xəstəxanasında "Dini radikalizm və onun fəsadları"; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay rayonu Yalman kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə Göyçay rayonu Yalman kənd məscidində "İslam Peyğəmbərinin nümunəvi əxlaqı və mötədillik" mövzularında;

**15 dekabr** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir ŞİH-in birgə təşkilatçılığı ilə Mingəçevir şəhər 1 saylı tam orta məktəbdə "Gənclərin radikal meyillərdən qorunması"; DQİDK-nın və Penitensiar Xidmətin birgə təşkilatçılığı ilə 4 saylı qadın cəzaçəkmə müəssisəsində "İslamda qadına verilən dəyər" və "Ananın övladın təlim-tərbiyəsində rolu", yeniyetmələrin cəzaçəkmə müəssisəsində "İslamda vətən sevgisi"; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Ağsu RİH və DTX-nın Şamaxı regional şöbəsinin birgə təşkilatçılığı ilə Ağsu Rayon Mədəniyyət və Turizm şöbəsində "Dini radikalizm və onun fəsadları"; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və hüquq-mühafizə orqanlarının birgə təşkilatçılığı ilə Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kollecində "Dini qarşıdurmaları yaradan səbəblər və bununla mübarizə yolları" mövzularında;

**16 dekabr** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və DTX-nın Şamaxı regional şöbəsinin birgə təşkilatçılığı ilə Şamaxı Dövlət Regional Kollecində "Dini radikalizm və ekstremizmlə mübarizə" mövzusunda;

**21 dekabr** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Qubadlı RİH-in birgə təşkilatçılığı ilə Hafiz Quliyev adına Çaytumas məktəb-liseyində "Dini radikalizm və onun fəsadları"; DQİDK və Qaradağ RİH-in birgə təşkilatçılığı ilə Səngəçal qəsəbəsi, 222 saylı tam orta məktəbdə "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda;

**23 dekabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in birgə təşkilatçılığı ilə Quba rayonunda fəaliyyət göstərən dini icma sədrlərinin, imam və axundların iştirakı ilə dini sahədə 2016-cı ildə görülən işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə;

**26 dekabr** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin birgə təşkilatçılığı ilə "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında Heydər Əliyev irsinin əhəmiyyəti" mövzusunda;

**28 dekabr** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Xaçmaz RİH-in birgə təşkilatçılığı ilə dini durumun vəziyyəti ilə bağlı ilin yekunları və bu sahədə növbəti ildə görüləcək işlərə dair müşavirə keçirilib.

Tədbirlərdə çıxış edən natiqlər Azərbaycanda tarixən mövcud olmuş multikulturalizm, tolerantlıq və dini dözümlülük dəyərlərindən danışaraq, bildiriblər ki, bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. Bütün millətlərin, xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi, dinc yanaşı yaşadığı nadir ölkələrdən olan Azərbaycanda dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, dövlət tərəfindən hər kəsin hüquq və azadlıqlarının həyata keçirilməsi üçün bütün şərait yaradılıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin və onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma məstəvisinə çevirib.



Eyni zamanda, natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Qeyd olunub ki, bu gün respublikamızda sabitlik və əmin-amanlığın hökm sürməsi Prezident cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.






# Tarix yaradan insan



Dünya tarixi zaman-zaman dahi şəxsiyyətlər, liderlər yetişdirmişdir. Həmin şəxsiyyətlər xalqının taleyində əvəzsiz rol oynamış, bəzən tarixin gedişatını dəyişmiş, bəşər yaddaşında əbədi iz qoymuşlar. Belə şəxsiyyətlərdən biri də Ümummilli Liderimiz Heydər Əliyevdir. Heydər Əliyev fenomeni tarixi xidmətləri, quruculuq işləri, eyni zamanda güclü, iradəli şəxsiyyəti ilə qətiyyətli rəhbər, xilaskar kimi Azərbaycan xalqının qəlbində dərin iz buraxmışdır. Ulu Öndər həm də mərhəmət və qayğıkeşlik keyfiyyətlərinə sahib nadir liderlərdən olmuşdur. Ömrünü Azərbaycanın inkişafına həsr etmiş bu görkəmli dövlət xadiminin xidmətlərini nə qədər saysaq, bitməz.

Azərbaycanın taleyi qırılmaz tellərlə Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəyə ilk etiraz səsini ucaldan məhz Ulu Öndər oldu. Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etdi. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, elə həmin il Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini vəzifələrində çalışmışdır. Ümummilli Lider 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü il iyunun 15-də isə Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır. 1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

12 dekabr Ümummilli Liderimizin anım günüdür. Xalq hər il Ulu Öndərin xatirəsini yad etmək məqsədilə Fəxri Xiyabana gedir, dahi liderin məzarı önünə əklil və gül dəstələri qoyurlar. Hər il yaşanan izdihamlı anım mərasimi Azərbaycan xalqının Heydər Əliyevə sevgisinin bariz göstəricisidir.

Ümummilli Lider də, öz növbəsində, xalqını, vətənini çox sevirdi, bütün varlığı ilə elinə bağlı idi. Dahi rəhbər Vətəninə duyduğu sevgini "Azərbaycan mənim ürəyimdir, Azərbaycan mənim nəfəsimdir, Azərbaycan mənim həyatımdır" sözləri ilə ifadə etmişdir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi olan Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab Prezident İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti bu gün də yaşayır və uğurla davam etdirilir. Həmin siyasətin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir. Biz şanlı keçmişimiz və bu günümüzlə fəxr edirik!

**Qəlbimizdə hər zaman yaşayacaqsan, Ümummilli Liderimiz!**

***Aygül AĞAYEVA***



# Dövlət Komitəsi İran şirkətinin Şuşada məscid bərpa etməsinə münasibət bildirib

**"Ermənistanın Şuşadakı tarixi Azərbaycan məscidini bərpa etmək istəyi işğal etdiyi ərazilərdə mədəni-dini abidələrimizə qarşı həyata keçirdiyi vandalizm siyasətini ört-basdır etmək cəhdidir".**

Bunu APA-ya Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov qondarma Dağlıq Qarabağ Respublikası ilə İran şirkəti arasında Şuşadakı Yuxarı Gövhərağa məscidinin təmiri ilə bağlı imzalanan müqaviləyə münasibət bildirərkən bildirib.

G.İsmayılov deyib ki, ermənilər işğal olunmuş torpaqlarımızda İslam dininə aid abidələrimizin, demək olar ki, hamısını məhv edibər. Qafqaz Albaniyası dövrünə aid alban məbədlərini isə ya qriqoryanlaşdırıblar, ya da bu mümkün olmadıqda dağıdıblar: "Bu reallıqları artıq dünya ictimaiyyəti bilir və Ermənistanın vandalizm siyasəti beynəlxalq aləmdə ifşa olunub. Buna görə də ermənilər "vəziyyəti dəyişmək üçün" cəhdlər göstərirlər. Amma artıq gecdir. Onlar ifşa ediliblər. O ki, qaldı bərpa işini hansısa müsəlman şirkətinin həyata keçirməsinə, bu, nə İslama, nə də insana yaraşan əməldir. Çünki ermənilər məscidlərdə heyvan saxlamaqla təkcə azərbaycanlıların yox, bütün müsəlmanların heysiyyatına toxunublar. Düşmən dəyirmanına su tökən bu cür müsəlmanlar beynəlxalq hüquq normalarına, Qarabağda yaşanan insanlıq faciəsinə hörmət etmirlər, heç olmasa inanclarına hörmət etsinlər. Təəssübkeş "müsəlman" şirkətləri həmin məscidlər dağıdılanda harada idilər? O vaxtlar niyə təəssübkeşlik göstərmirdilər?"

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### QEYDİYYAT

**Cəlilabad rayonu Zərbiəlli kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2016-cı il
Qeydiyyat №-si: 100116A-726
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Cəlilabad rayonu, Zərbiəlli kəndi, "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Rəfail Fitat oğlu Bəşirov

**Zərdab rayonu Qoruqbağı kəndi "Cümə" məscidi dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2016-cı il
Qeydiyyat №-si: 100116D-727
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Zərdab rayonu, Qoruqbağı kəndi, "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Möhübbət Seyfəddin oğlu Mustafayev

**Oğuz şəhər Yəhudi dini icması**

Qeydiyyat tarixi: 21 dekabr 2016-cı il
Qeydiyyat №-si: 100116C-728
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Oğuz şəhəri, Arzu Əliyev küçəsi 25 saylı ünvanda yerləşənsinaqoq
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Şirin İlazar oğlu Şuminov

### DƏYİŞİKLİK

**Ağcabədi rayonu "Seyid Mürsəl Ağa" məscidi dini icması**

Qeydiyyat tarixi: 15 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 93
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimov Əkbər Qədir oğlu, Xəlilov Rza Mahmud oğlu, İbrahimov Qüdrət İbrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əliyev Əli Qaryağdı oğlu, Qasımov Anar Yaşar oğlu, Quliyev Nicat Abbas oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi:
15 dekabr 2016-cı il

**Ağdaş şəhər məscidi dini icması**

Qeydiyyat tarixi: 26 noyabr 2009-cu il
Qeydiyyat №-si: 100109A2 – 37
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Həmidov Rəcəb Cəlil oğlu, Yusubov Elxan Əmiraslan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Zəkəryəyev Müşviq Əhməd oğlu, Zəkəryəyeva Ruhangiz İliyas qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Həmidov Rəcəb Cəlil oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Zəkəryəyev Müşviq Əhməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:**
**15 dekabr 2016-cı il**

**Zaqatala rayonu Muxax kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 176
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İbrahimov Elçin Ramazan oğlu, Davudov Tahir İsmayıl oğlu, İsmayılov Dibrov Şaban oğlu, Məmmədov Çingiz Yusif oğlu, Abakarov Paşa Paşa oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Rəcəbov Abdurahman Məhəmməd oğlu, Yusubov Abdurahman Yusif oğlu, Abdullayev Yaqub Cəmal oğlu, Mahmudov Qəni Vəli oğlu, Mehdiyev Xalaxverdi Osman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. İbrahimov Elçin Ramazan oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Rəcəbov Abdurahman Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
21 dekabr 2016-cı il

**Zaqatala rayonu Qandax kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 18 yanvar 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 168
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qocayev Ramin Vahab oğlu, Bayramov Coşqun Məhəmmədsaleh oğlu, Qocayev Cabrayil Səfər oğlu, Mustafayev Söhrab Teyyub oğlu, Abbasov Xanoğlan Camal oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Osmanov Məftun Həzrətəli oğlu, Bayramov Bayram Ziyaddin oğlu, Şabanov Şahiddin Hüseyinəli oğlu, Osmanov Aslan Mixail oğlu, Əskərov Babək Arif oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Qocayev Ramin Vahab oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Məmmədov Yahya Nəsrullah oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
21 dekabr 2016-cı il

**Balakən rayonu Cederovtala kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 28 dekabr 2009-cu il
Qeydiyyat №-si: 100109A3 – 145
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Eminov Məhəmməd Həmzət oğlu, Cerçiyev İbrahim Ramazan oğlu, Varşayev Namir Ömər oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Musalov İsa Ramazan oğlu, Varşayev İlham Asvadoviç, Ceerçiyev İsmayıl Həmzət oğlu, Ceerçiyev Eyvaz Muhmatimin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Eminov Məhəmməd Həmzət oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Ceerçiyev Həmzət Məhəmməd oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi:
21 dekabr 2016-cı il

### ELAN

**Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbə dini icmasının dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 225 nömrəli, 19.11.2003-cü il tarixli şəhadətnamə, icmaya aid nizamnamə, möhür və ştamp itirildiyi üçün etibarsız sayılır.**

Cəmiyyət və Din
№ 12 (305) / DEKABR 2016-cı il

# "Multikulturalizm: meyillər və reallıqlar" kitabının təqdimatı olub



Dekabrın 20-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ədəbiyyat İnstitutunda AMEA-nın və MDB-yə üzv ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) birgə təşkilatçılığı ilə "Yeni mərhələdə elmi əlaqələrin inkişafı: dialoq və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq elmi seminar çərçivəsində "Multikulturalizm: reallıqlar və meyillər" kitabının təqdimatı olub.

Rusiya Elmlər Akademiyasının A.M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun direktoru, professor Vadim Polonski və AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin moderatorluğu ilə keçirilən tədbirdə kitabın Ədəbiyyat İnstitutu və Moskva Dövlət Pedaqoji Universitetinin (MDPU) Stavropol filialı tərəfindən birgə hazırlandığı bildirilib.

Kitabın məziyyətindən danışan akademik İ.Həbibbəyli qeyd edib ki, bu nəşrdə ədəbiyyatımıza multikultural dəyərlər istiqamətindən olan baxış onun əzəmətini müəyyənləşdirən təməl meyarlardan biri kimi özünü göstərir. Diqqətə çatdırılıb ki, bu, əməkdaşlıq çərçivəsində artıq dördüncü kitabdır. Bundan sonra da birgə layihələrin keçirilməsi nəzərdə tutulub.

MDPU Stavropol filialı direktorunun müavini Liliya Qriqorova bildirib ki, 2014-cü ildə AMEA ilə bu filial arasında əməkdaşlıq haqqında sənəd imzalanıb. Həmin sənəd iki qurum arasında əlaqələrin daha da genişlənməsinə sanballı töhfələrini verir.

Digər çıxış edənlər də ölkələrarası elmi əməkdaşlığın əhəmiyyətini qeyd edib, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıblar.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Yanvar -2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:37 | 08:04 | 12:44 | 15:44 | 17:40 | 18:46 |
| 2 | 06:37 | 08:04 | 12:44 | 15:45 | 17:41 | 18:47 |
| 3 | 06:37 | 08:04 | 12:45 | 15:45 | 17:42 | 18:47 |
| 4 | 06:37 | 08:04 | 12:45 | 15:46 | 17:43 | 18:48 |
| 5 | 06:37 | 08:04 | 12:46 | 15:47 | 17:44 | 18:49 |
| 6 | 06:37 | 08:04 | 12:46 | 15:48 | 17:45 | 18:50 |
| 7 | 06:37 | 08:04 | 12:47 | 15:49 | 17:46 | 18:51 |
| 8 | 06:37 | 08:04 | 12:47 | 15:50 | 17:47 | 18:52 |
| 9 | 06:37 | 08:03 | 12:48 | 15:51 | 17:47 | 18:52 |
| 10 | 06:37 | 08:03 | 12:48 | 15:52 | 17:48 | 18:53 |
| 11 | 06:37 | 08:03 | 12:48 | 15:53 | 17:49 | 18:54 |
| 12 | 06:37 | 08:03 | 12:49 | 15:54 | 17:50 | 18:55 |
| 13 | 06:37 | 08:03 | 12:49 | 15:55 | 17:52 | 18:56 |
| 14 | 06:37 | 08:02 | 12:50 | 15:56 | 17:53 | 18:57 |
| 15 | 06:36 | 08:02 | 12:50 | 15:57 | 17:54 | 18:58 |
| 16 | 06:36 | 08:01 | 12:50 | 15:59 | 17:55 | 18:59 |
| 17 | 06:36 | 08:01 | 12:51 | 16:00 | 17:56 | 19:00 |
| 18 | 06:35 | 08:01 | 12:51 | 16:01 | 17:57 | 19:01 |
| 19 | 06:35 | 08:00 | 12:51 | 16:02 | 17:58 | 19:02 |
| 20 | 06:35 | 07:59 | 12:52 | 16:03 | 17:59 | 19:03 |
| 21 | 06:34 | 07:59 | 12:52 | 16:04 | 18:00 | 19:04 |
| 22 | 06:34 | 07:58 | 12:52 | 16:05 | 18:01 | 19:05 |
| 23 | 06:33 | 07:58 | 12:52 | 16:06 | 18:03 | 19:06 |
| 24 | 06:33 | 07:57 | 12:53 | 16:08 | 18:04 | 19:07 |
| 25 | 06:32 | 07:56 | 12:53 | 16:09 | 18:05 | 19:08 |
| 26 | 06:32 | 07:55 | 12:53 | 16:10 | 18:06 | 19:09 |
| 27 | 06:31 | 07:55 | 12:53 | 16:11 | 18:07 | 19:10 |
| 28 | 06:30 | 07:54 | 12:54 | 16:12 | 18:08 | 19:11 |
| 29 | 06:30 | 07:53 | 12:54 | 16:14 | 18:10 | 19:12 |
| 30 | 06:29 | 07:52 | 12:54 | 16:15 | 18:11 | 19:14 |
| 31 | 06:28 | 07:51 | 12:54 | 16:16 | 18:12 | 19:15 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Dünya əhalisinin sayı 7,4 milyard nəfəri keçib



BMT-nin Əhali Fondu dünya əhalisinin sayı ilə bağlı son rəqəmləri açıqlayıb. Fondun hesabatına görə, hazırda dünya üzrə əhalinin sayı 7,43 milyard nəfərdir. Bu, ötən illə müqayisədə əhalinin sayında 1,1 faizlik artım deməkdir. Belə ki, bir il əvvəl bu rəqəm 7,34 milyard olub. Əhalinin 26 faizini yaşı 14-ə qədər olanlar təşkil edir. Hesabatda o da bildirilir ki, yer sakinlərinin təxminən yarısı gender diskriminasiyası ilə üzləşir. Bu zaman əhalinin ən həssas kateqoriyasını 10 yaşına çatmamış qızlar təşkil edir. Bir çox ölkələrin dövlət siyasəti balaca uşaqların və ya yeniyetmələrin problemlərinin həllinə yönəlib və bu yaşda olan qızları potensial risklərdən müdafiə etməyə qadir deyil.

# Dubayda ilk eko-məscid



Dubayın yeni salınmış "ən yaşıl" ərazi kimi tanınan rayonlarının birində 700 nəfər üçün nəzərdə tutulan eko-məscid istifadəyə verilib.

Binanın tikintisində ətraf mühitə mənfi təsir göstərməyən yüksək texnologiyadan, ekoloji baxımdan təmiz materiallardan istifadə edilib. Digərləri ilə müqayisədə yeni məsciddə enerji sərfiyyatı 90% azaldılıb. Avtomobillərin saxlandığı dayanacaqlar günəş batareyaları ilə təchiz olunub.

Xatırladaq ki, ərazisi 460 kvadratmetr olan "Sustainable City" (Dayanıqlı Şəhər) rayonu üç dayanıqlıq - ekoloji, iqtisadi və sosial prinsiplərinə uyğun salınıb. Şəhərcik, demək olar ki, ətraf mühitə heç bir neqativ təsir göstərmir.

# Nyutonun kitabı 3.7 milyon dollara satılıb



Dünyanın ən bahalı elmi əsəri sayılan İsaak Nyutonun "Natural fəlsəfənin riyazi başlanğıcı" kitabı "Christies" hərracında rekord qiymətə - 3.7 milyon dollara satılıb. Kitab 1687-ci ildə nəşr edilib. Kitabda ümumdünya cazibə qanunu, bu gün Nyuton qanunları kimi tanınan 3 hərəkət qanunu yer alıb. Albert Eynşteyn vaxtilə bu kitabı bəşəriyyətin ali və intellektual uğuru adlandırmışdı. Məlum olub ki, hərrac evi kitabın 1-1.5 milyon avroya satılacağına ümid edirdi. Amma naməlum alıcı kitabı əldə etmək üçün 3 milyon 719 min dollar ödəyib. Xatırladaq ki, bu günə qədər keçirilən heç bir hərracda bir kitaba bu qədər məbləğ ödənilməyib. Orijinal əlyazma isə London kral cəmiyyətinin arxivlərində saxlanılır.

# Xərçəngin düşməni - bir ovuc qoz



Gündə bir ovuc qoz yemək insanlarda xərçəng və ürək-damar xəstəliklərinin yaranma riskini azaldır. London İmperiya kollecinin mütəxəssisləri 29 araşdırma zamanı 800 mindən artıq insan arasında təcrübə aparıblar. Təhlillərin nəticəsinə görə, müntəzəm olaraq qoz yeyən insanlarda ürək infarktlarına 30%, vaxtından öncə ölüm hallarına 22% və xərçəng xəstəliyinə 15% daha az rast gəlinir. Qoz yeyən insanlarda diabetə yoluxma halları 40%, respirator xəstəliklərdən ölmə ehtimalı isə 2 dəfə azdır. Hesab olunur ki, qozun tərkibindəki maddələr qanda xolesterinin miqdarını azaldır. Araxis insulta qarşı, fındıq isə xərçəngə qarşı ən effektli vasitələr sayılır.

## Yadigar söz

Şarl Lui Monteskyö,
*fransız siyasi xadimi*

**Əvvəllər bir ölkəyə qarşı döyüşmək üçün əsgər axtarılırdı. Bu gün əsgərləri döyüşdürmək üçün ölkə axtarılır.**

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 568

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894